# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarixin axarını dəyişən LİDER



4

# Qarabağ və Şərqi Zəngəzur: möhtəşəm quruculuq meydanı



2

SƏS
№ 131 (7299)
26 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

# Ermənistanın son durumu



14

## Şəxsiyyət vəsiqəsində əks olunan məlumatların tərkibi yenilənəcək



16

## "Bu siyasət çərçivəsində ölkənin insan kapitalı formalaşır" - PA rəsmisi



5

## Həyəcan siqnalı: əmisiz-xalasız nəsil formalaşır



9

## Ali məktəbi bitirənlər niyə magistratura üzrə təhsil almaq istəmirlər?



11

## Bir gündə doğulub və eyni tale yaşayan ŞƏHİDLƏRİMİZ!



8






# Qarabağ və Şərqi Zəngəzur: möhtəşəm quruculuq meydanı

## Prezident İlham Əliyev: "Hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur"

***İllərlə işğal tariximizdən acı-acı yazdıq və o tarixi anaraq böyük sarsıntı keçirdik. Hər dəfə də doğma yurda qayıdacağımıza böyük ümid bəsləyirdik. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz QƏLƏBƏ, ZƏFƏR artıq bizə qələbə ilə yoğrulmuş fikirləri yazmağa imkan verir. Bu gün qalib xalq olaraq işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən abadlıq-quruculuq işlərindən yazırıq.***

Böyük QAYIDIŞIMIZ uğurla yerinə yetirilməsindəən yazırıq. Artıq on səkkiz yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində, Ağdamda, Şuşada  Ancaq bu proses tədricən gedir. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köçlər yola salınıb. İnsanların doğma yerlərdən səsləri eşdilir. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Şəhər, kənd və qəsəbələr yenidən qurulur. "Hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni, o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir. Təkcə, bax, bu bölgənin havası deyil, - mən əminəm, siz də eyni hissləri keçirirsiniz, - özümüzü Şuşada yaxşı hiss edirik, yaxud da ki, Zəngilanda, Laçında. Təkcə havaya görə deyil, daxildən gələn xoşbəxtlikdir. Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur", - deyə Prezident bildirib. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

### AĞDAM RAYONUNUN XIDIRLI KƏNDİNƏ 60, CƏBRAYIL ŞƏHƏRİNƏ İSƏ 50 AİLƏ KÖÇÜRÜLDÜ

Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoynuna alır. İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Bu gün daha bir köç karvanına şahidlik edirik. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, yenidən qurulan Ağdam rayonunun Xıdırlı kəndinə və Cəbrayıl şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı





yola salınıb. Bu mərhələdə Ağdam rayonunun Xıdırlı kəndinə 60 ailə - 232 nəfər, Cəbrayıl şəhərinə isə 50 ailə - 199 nəfər köçürülüb. Hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

### GENİŞMİQYASLI ABADLIQ-QURUCULUQ İŞLƏRİ

20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmışdı. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. 27 il sonra işğaldan azad olunan Ağdam öz haqqına qovuşdu. Xatırlatmaq yerinə düşər ki, Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6–8 min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. VI–IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur. Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi. 1993-cü ilin iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Ağdama edilən son hücumda 6.000 nəfər erməni əsgəri iştirak edirdi. Onların arasında çoxlu sayda xaricdən gəlmiş ermənilər və muzdlu əsgərlər də var idi. Cənab Prezident Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşləri əsnasında bildirdiyi fikirləri xatırlatmaq yerinə düşər: "Deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq". Ağdamda abadlıq-quruculuq işləri uğurla davam etdirilir.

Ardı Səh. 3

# Qarabağ və Şərqi Zəngəzur: möhtəşəm quruculuq meydanı

Əvvəli-Səh-2

### "ƏHALİNİN SAYINA GÖRƏ AĞDAM ƏN BÖYÜK RAYONDUR"

Dövlət başçısı Ağdam rayonunun işğaldan azad olunmasını tarixi hadisə olduğunu bildirib: "Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik". Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərə səfərləri çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi bu ərazilərdə görülən işləri daha da sürətləndirir.

Ağdam Muğam Mərkəzinin istifadəyə verilməsi mədəniyyətimizin vizit kartı muğama, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidası olan sənətin yyaşamasına ayrılan diqqətdir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. Artıq dünya ölkələrində Azərbaycan muğamı birmənalı olaraq qəbul edilmiş, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənələrində və tarixində dərin köklərə malikdir. Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

### RAHATLIQ VƏ FİRAVANLIĞIN GÖZƏL MƏKANI

Ağdamda abadlıq-quruculuq işləri genişlənib. 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyası istifadəyə verilib. Bu, Ağdam rayonunun Xocalı rayonu ilə sərhədində yerləşən Şelli kəndi ərazisində inşa edilib. Yarımstansiyanın Ağdamın Xocalı ilə sərhədində tikilməsinin xüsusi əhəmiyyəti vardır. Yəni, "Ağdam" qovşaq yarımstansiyası rayonun bəzi kəndləri ilə yanaşı, əsasən Xocalı, Əsgəran, Xocavənd, Ağdərə və Xankəndini ölkə enerji sisteminə qoşmaqla bərabər, həmçinin ehtiyat qida mənbəyi kimi regionun enerji təchizatında etibarlılığı təmin edir. Bunun üçün yarımstansiyada ehtiyat yuvalar da quraşdırılmışdı.

Artıq Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub. Ümumi sahəsi 12 hektar olan yaşayış kompleksinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Kompleks şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumilikdə 1115 mənzil olacaq. Mənzillərdən 25-nin birotaqlı, 314-nün ikiotaqlı, 552-sinin üçotaqlı, 224-nün isə dördotaqlı olacaq. Kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançaları, istirahət guşələri, velosiped dayanacaqları və digər zəruri infrastruktur obyektləri istifadəyə veriləcəkdir. Bütün binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İnsanların rahatlıq və firavanlığı əsas məsələlərdəndir.

Bununla yanaşı, Ağdam şəhərində dördüncü yaşayış kompleksinin də təməli qoyulub. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksinin ərazisinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir. Bu kompleksdə tikilən yaşayış binalarında ümumi sahəsi 137 min kvadratmetr təşkil edən 1080, o cümlədən 36 birotaqlı, 363 ikiotaqlı, 484 üçotaqlı, 197 dördotaqlı mənzil olacaq.

### YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ YOL İNFRASTRUKTURU

Bütün bu və ya digər işlərlə yanaşı, Ağdam şəhərinin daxili yollarında aparılan işlər də sürətli görülür. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulmuşdu. Ağdam şəhərinin daxili yolları 6 tip en kəsiyinə uyğun tikilir. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır".

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Böyük Qayıdış strategiyası əsasında işğaldan azad olunan ərazilərimizin yenidən qurulması və bərpası istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də 30 ilə yaxın işğal altında olan və bu illər ərizində dağıdılan məkanlarımızın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

Beynəlxalq tələblər səviyyəsində qurulan yollar, inşa olunan yeni körpülər, tunellər əlbəttə ki, piyadaların və sürücülərin rahat hərəkətində önəmli faktordur. Bu gün avtomobil yollarının tikintisi və yenidən










qurulması işlərinin həcmi ilbəil artır. Yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulması prioritet vəzifələrdəndir.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfərləri çərçivəsində görülən işlər tarixə qovuşur.

***Zümrüd BAYRAMOVA***

# Tarixin axarını dəyişən LİDER



***Azərbaycan xalqı o mətin, mübariz xalqlardandır ki, üzləşdiyi hər bir çətinliyə, problemlərə, böhranlı vəziyyətlərə sərt və qəti mübarizəsi ilə sinə gərib. Xalq milli faciələrlərlə, böyük ürək dağlayan dağıntılarla üzləşsə də nəhayət üzləşdiyi çətinlikləri, hətta qarşılaşdığı işğal faktlarını aradan qaldırmağı bacarıb. Bu baxımdan Azərbaycan xalqı dünya miqyasında sayılan-seçilən ən qüdrətli, mübariz xalqlardan hesab edilir. Məhz bu mübarizliyi, qətiyyəti hesabına öz dövlət müstəqilliyini qurmağı bacarıb. Təəssüf ki, 1918-1920-ci illərdə qurulan dövlətçiyin ömrü 23 ay çəksə də, ötən əsrin 90-cı illərində qurulan dövlət müstəqilliyin ömrü əbədi olacağı şübhəsizdir.***

Düzdür, 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra bəzi daxili və xarici məkrli dairələr müstəqilliyin məhv edilməsi üçün genişmiqyaslı hərəkətə keçmişlər. O dövrdə ölkəmizdə xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran baş alıb gedirdi. Digər tərəfdən isə Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızın deyil, ayrı-ayrı qüvvələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına səbəb olmuşdu. Belə bir çətin məqamda xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi 91 nəfər ziyalının Ulu Öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti ölkəmizin bugünkü inkişafı üçün möhkəm təməl oldu. Belə ki, həmin müraciətdə bir daha qeyd olunmuşdur ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz".

### Azərbaycanın hər bir uğurunda payı olan partiya

Ulu Öndər Heydər Əliyevin "91-lər"in müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı itirilən ümidlərin bərpa olunacağına inam yaratdı. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması "obyektiv zəruriyyətdən doğur" söyləyən ulu öndər Heydər Əliyev belə bir əminliyi də ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində tarixi rol oynaya bilər. 1992-ci il noyabrın 21-də təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında hazırda 850 minə yaxın üzv birləşib. Partiyanın hər bir üzvü Dahi Öndər Heydər Əliyev ideyalarının, Onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır. Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlərdə partiyanın yoluna işıq salır, onun hədəflərini açıqlayır. Azərbaycanın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, məlum olar ki, Yeni Azərbaycan Partiyası 1993-cü ildən prezident, parlament, bələdiyyə seçkilərində uğur qazanmasını əsas səbəbi xalqın Ulu Öndər Heydər Əliyev siyasətinə bağlı olması, Prezident İlham Əliyevin xeyirli, gərəkli fəaliyyətinə yüksək qiymət verməsidir. Azərbaycan Prezidenti İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir.Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

### Tarixi yaradan və yaşadan lider

1993-cü ildə Dahi Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın, eyni zamanda, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yeni bir mərhələnin təməlini qoydu. Ümummilli Lider uğurlu daxili və xarici siyasəti ilə ölkədə sabitlik yaratdı. Bu reallıq bir daha diqqətə çatdırıldı ki, sabitlik olmadan hansısa sosial-iqtisadi proqramların icrasından danışmaq qeyri-mümkündür. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması həm ölkədə sabitliyin yaradılmasına, həm də digər sahələrdə uğurlu addımların atılmasına yol açdı. Məhz həmin ilin sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. "Əsrin müqaviləsi" yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Azərbaycana artan inam ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmində, həmçinin imzalanan saziş və Anlaşma Memorandumlarının sayında da özünü qabarıq şəkildə büruzə verdi.

### Azərbaycanın inkişafında yeni mərhələ

Ulu Öndərimiz Heydər Əliyevin böyüklüyü, dahiliyi həm də onda idi ki, O, ölkə Prezidenti İlham Əliyev kimi uzaqgörən, müdrik, dahi siyasətçi yetişdirmidir. Ötən 22 il ərzində sosial, iqtisadi sahədə əldə olunan uğurlar, xüsusilə də 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsi Prezident İlham Əliyevə olan inam və etimadın ən yüksək səviyyədə doğruldulğunu təqdiqləyir. Ölkə Prezidenti İlham Əliyev Ulu Öndərimizin başlatdığı bütün işləri yüksək səviyyədə davam etdirmiş, qarşıya qoyulmuş hədəflərə çatdırmış, Azərbaycanı dünyada öz gücü, qüdrəti və inkşafı ilə seçilən Qalib bir dövlətə çevirmiş, Ata vəsiyyətini yerinə yetirmişdir. Xatırlatmaq lazımdır ki, Ulu Öndər Heydər Əliyev 1 oktyabr 2003-cü ildə prezident seçkiləri ərəfsində Azərbaycan xalqa müraciətində demişdir: "Üzümü Sizə- həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu öndər Heydər Əliyevin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam və inkişaf etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərinin yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən "sabitlikdən inkişafa doğru" ideyasıdır.

### Son 22 ildə həyata keçirilən təkmil islahatlar

Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırır. Prezidentin bu barədə irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər. "Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir. Əks təqdirdə, iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz" - deyən Prezident İlham Əliyev haqlı olaraq bəyan edir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin son 22 ildə həyata keçirdiyi təkmil islahatlar Azərbaycanın davamlı inkişafını təmin edir. Neft siyasətinin məntiqi davamı olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımların uğurlu nəticəsidir ki, bu gün ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu, "neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürdü. Bu günümüzün reallıqları bu məqsədin artıq gerçəklik olduğunu təsdiqləyir. Təbii ki, enerji sektorunda da uğurlarımız davamlıdır. Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi, "Yeni əsrin müqaviləsi" nin imzalanması və sair kimi biri-birindən əhəmiyyətli hadisələr Azərbaycanın dünyanın enerji təhlükəsizliyində yeri və rolunu möhkəmləndirir. "Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması ölkəmizin etibarlı və stabil inkişaf edən dövlət kimi bütün dünyada nüfuzunun yüksəlməsi, əhalimizin rifahının təminatı baxımından böyük strateji əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycanın Avrasiyanın geosiyasi nəqliyyat mərkəzinə çevrilməsi yolunda atılmış ən mühüm addımdır.

### Bütöv və qüdrətli Azərbaycan

2020-ci il Azərbaycan tarixində şanlı, qızıl hərflərlə yazılan tarixi səhifə oldu. Sentyabrın 27 –də başlayan 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın erməni işğalından azad edilməsi Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsidir. 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Bu ilin sentyabrın 19-20-də isə keçirilən antiterror tədbirləri ilə Azərbaycan Qarabağ bölgəsi üzərində suverenliyini tam bərpa etdi. 23 saat 44 dəqiqəlik əməliyyatla separtizm ləğv olundu, terrorçu ideoloqlar həbs olunaraq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verildi. Söz yox ki, onları xalqımıza qarşı törətdikləri cinayət əməllərinə görə layiq olduqları cəza gözləyir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu gün artıq tam şəkildə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Noyabrın 8-də tarixi zəfərin 3 illiyi dönəmində Xankəndi şəhərində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi paradın keçirilməsi bütün dünyaya Azərbaycanın ən güclü və qüdrətli dövlət olduğunu göstərdi. Bu güc və qüdrət Azərbaycanın getdiyi yolun, həyata keçirilən siyasətinin bəhrəsidir.

***İLHAM ƏLİYEV***

# "Bütün bunlara ən böyük dəstəyi erməniпərəst dairələr verir"

***Milli Məclis Korsika Xalqına Dəstək Qrupunun Fransa Milli Assambleyasında irəli sürülmüş yeni qətnamə layihəsinə dair bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir: "Bu günlərdə Fransa Milli Assambleyasında erməniпərəst və anti-Azərbaycan ünsürlər tərəfindən yeni qətnamə layihəsi irəli sürülüb. Qətnamə layihəsinin müəlliflərinin kimliyi artıq həmin layihənin mahiyyətini açıq şəkildə ortaya qoyur. Regionumuzda baş verən proseslərə növbəti müdaxilə cəhdi olan bu layihədə adəti üzrə reallıqlar təhrif olunur, Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirilir və ölkəmiz əleyhinə yalan ittihamlar ortaya atılır.***



Milli Məclis Korsika Xalqına Dəstək Qrupunun Fransa Milli Assambleyasında irəli sürülmüş yeni qətnamə layihəsinə dair bəyanat yayıb

Belə görünür ki, Azərbaycanla Ermənistan arasında xüsusən Abu Dabi görüşündən sonra sülh gündəliyinin irəliləməsi müəyyən qüvvələrin maraqlarına heç bir halda cavab vermir. Onlar vəziyyəti yenidən gərginləşdirmək və sülh gündəliyinə xələl gətirmək xəttini seçiblər. İndiki məqamda Fransa Milli Assambleyasında irəli sürülmüş bu lüzumsuz qətnamə cəhdi də bu davranışın növbəti bariz nümunəsidir.

Digər tərəfdən, qeyd etməliyik ki, Yeni Kaledoniya ilə Fransa arasındakı sonuncu razılaşmalar artıq Yeni Kaledoniyanın bir dövlət kimi formalaşma istiqamətində inamla irəlilədiyini göstərir. Belə bir vəziyyətdə vətəndaş cəmiyyəti təsisatı və qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun Yeni Kaledoniyaya göstərdiyi dəstək Fransanı olduqca qıcıqlandırır. Əminliklə demək olar ki, Fransa tərəfi Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə özünəməxsus üslubda – həmin qətnamə layihəsi ilə cavab verməyə çalışır.

Bütövlükdə, bu kimi addımların – istər Valeri Pekres, Ann İdalqo kimilərinin anti-Azərbaycan fəaliyyətinin, istərsə də Milli Assambleyada indiyədək ölkəmiz əleyhinə qəbul edilmiş qətnamələrin mahiyyəti bundan ibarətdir ki, Fransa Cənubi Qafqazda sülh gündəliyindən tamamilə kənarda qalmasını həzm edə bilmir. Bu səbəbdən də bütün vasitələrdən istifadə edərək regionda vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir. Bütün bunlara ən böyük dəstəyi də erməni lobbisi və erməniпərəst dairələr verir.

Daha vacib bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, ölkəmizə qarşı atılan bu kimi addımlarda bir-biri ilə əlaqəli olan vahid bir şəbəkənin fəaliyyəti özünü aydın şəkildə büruzə verir. Müəyyən qüvvələrin maraqlarını reallaşdırmağa çalışan həmin şəbəkənin ayrı-ayrı ünsürləri İsveçrə parlamentində, Fransa parlamentində, ABŞ Konqresində müxtəlif təxribatlar ortaya ataraq regiondakı sülh gündəliyini pozmağa çalışırlar.

Lakin onlar bilməlidir ki, bu kimi təxribatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətə zərrə qədər də təsir göstərə bilməz və Cənubi Qafqaz regionunda baş verən proseslərə xarici müdaxilələrə heç bir halda icazə verilməyəcək".

# "Rusiya "yaxın xaricini" itirir..."



...Ukraynadakı müharibə fonunda Rusiya keçmiş sovet respublikalarında öz mövqelərini sürətlə itirir. SİA-nın məlumatına görə, "Foreign Affairs" jurnalı yazır ki, Kreml hərbi əməliyyatlara diqqət yetirdiyi halda, Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri öz suverenliklərini gücləndirir, xarici siyasətlərini şaxələndirir və yeni regional ittifaqlar yaradırlar. Ermənistan, Azərbaycan, Qazaxıstan və digər dövlətlər Hindistan, Fransa, Türkiyə və Çindən silah almaq, Avropa İttifaqı ilə ticarəti inkişaf etdirmək və beynəlxalq nəqliyyat dəhlizlərində iştirakını artırmaqla Moskvadan asılılığa alternativ axtarırlar.

Rusiyadan yan keçən infrastruktur və neft-qaz kəmərlərinin tikintisi layihələri xüsusilə fəal şəkildə inkişaf edir. Əhəmiyyətli dönüş nöqtəsi uzun müddətdir davam edən münaqişələrin Moskvanın iştirakı olmadan həlli oldu. 2025-ci ildə Qırğızıstan və Tacikistan Fərqanə vadisində mübahisələrin həlli ilə bağlı saziş imzalayıb. Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanması üçün danışıqlar davam etdirir. İlk dəfədir ki, diplomatik sıçrayışlar Rusiyanın vasitəçiliyi olmadan baş verir. Eyni zamanda Çin və Türkiyənin də təsiri artır.

Pekin xüsusilə Tacikistan və Özbəkistanda iqtisadi və hərbi əməkdaşlığı gücləndirir. Ankara NATO ruhunda müdafiə layihələri və hərbi modernləşməni fəal şəkildə təşviq edir. Demək olar ki, bütün Orta Asiya ölkələri Türkiyədən pilotsuz təyyarələr alır. Rusiyanın miqrasiya, ticarət və mədəni əlaqələr vasitəsilə siyasi və iqtisadi təsirinin davam etməsinə baxmayaraq, postsovet ölkələri daha balanslı xarici siyasət axtarırlar. ABŞ və onun müttəfiqləri, analitiklərin fikrincə, regional sabitliyi, infrastruktur layihələrini və region ölkələrinin xarici siyasətinin şaxələndirilməsini dəstəkləməklə konstruktiv rol oynaya bilər. Rusiya "yaxın xaricə" nəzarəti saxlamaq üçün mübarizə aparırkən, yeni oyunçular və ittifaqlar Avrasiyada güc balansını dəyişir.

*Əli Babayev*

## "Bu siyasət çərçivəsində ölkənin insan kapitalı formalaşır" - PA rəsmisi

***"Yüksəliş" müsabiqəsi insan kapitalına yönəlmiş ən dəyərli investisiyalardan biridir. SİA xəbər verir ki, bunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva beşinci "Yüksəliş" müsabiqəsinin mükafatlandırma mərasimində deyib.***



O bildirib ki, zaman və şəraitdən asılı olmayaraq, insanın öz bilik və bacarıqlarına etdiyi sərmayə heç vaxt dəyərini itirmir və bu investisiyanı heç kim ondan ala bilməz: "Müasir dövrdə bilik və təhsilə yönələn diqqət dövlətin strateji yanaşmasının göstəricisidir. Azərbaycan ailələri övladlarının təhsilli və layiqli vətəndaş olmalarına böyük önəm verir. Valideynlər çox vaxt şəxsi maraqlarından keçərək övladlarının yaxşı təhsil alması üçün fədakarlıq göstərirlər".

Fərəh Əliyeva əlavə edib ki, Azərbaycan dövləti bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirir: "Bu siyasət çərçivəsində ölkənin insan kapitalı formalaşır və bu kapital ölkənin gələcək inkişafının əsasını təşkil edir".

## İsrail səfiri: Azərbaycan multikulturalizm modeli ilə haqlı olaraq qürur duyur

***Azərbaycan tolerantlıq və multikulturalizm modeli ilə haqlı olaraq qürur duyur. 2019-cu ildə Prezident İlham Əliyevin məni ilk dəfə qəbul etdiyi zaman bir yəhudinin Bakının küçələrində Parisdən daha təhlükəsiz şəkildə gəzə biləcəyini dedi. Prezident o zaman da haqlı idi, bu gün isə daha da haqlıdır.***



AZƏRTAC xəbər verir ki, bu sözləri İsrail Dövlətinin Azərbaycandakı səfiri Corc Dik ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar keçirilən mətbuat konfransında söyləyib.

O qeyd edib ki, Azərbaycanda sovet dövründən qalmış antisemitizm qalıqlarını aradan qaldırıb. Nüfuzlu beynəlxalq təşkilat olan "Impact-se" Azərbaycanın bu sahədə nümunə olduğunu qeyd edib.

"Azərbaycan Holokost qurbanlarının beynəlxalq anım gününü dövlət və dini qurumların nümayəndələrinin iştirakı ilə yad edir. Eyni zamanda, Azərbaycan öz tələbələrini İsraildə təhsil almağa təşviq edir. Bütün bunlar iki ölkənin dostluq əlaqələrinin nümunəsidir".

Səfir daha sonra bildirib ki, son altı il ərzində Azərbaycanla İsrail arasında mühüm və tarixi hadisələr baş verib. İki xalq arasında münasibətlər daha da dərinləşib və yeni mərhələyə qədəm qoyub. "Şuşanı ziyarət edən ilk israilli səfir olmaq mənim üçün xüsusi fəxrdir. İsrail daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən biri olub. Çünki biz dostluğun yalnız asan günlərdə deyil, çətin zamanlarda da sınandığına inanırıq. Azərbaycan xalqının göstərdiyi bu humanist münasibəti heç vaxt unutmayacağam", - deyə səfir bildirib. O qeyd edib ki, İsrail-Azərbaycan münasibətləri son illər ərzində daha uca zirvələrə yüksəlib.

"Enerji və təhlükəsizlik sahələrindəki əməkdaşlıq əlaqələrimizin əsas sütunları olaraq qalır və inanıram ki, qarşıdakı illərdə bu əlaqələr daha da genişlənəcək. 2025-ci il üçün qarşıya qoyduğumuz əsas hədəflərdən biri 50 min israilli turistin Azərbaycana səfər etməsini təmin etməkdir", - deyə diplomat vurğulayıb.





# Qəbələdə möhtəşəm Beynəlxalq Musiqi Festivalı

*Festival dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə təsadüf edir*



***Milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr Azərbaycanın iqtisadi inkişafını, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsidir. Bu layihələrə dövlət dəstəyinin olması milli mədəniyyətimizin daha geniş bir şəkildə təbliğinə meydan verir. Ölkə rəhbərinin bir-birinin ardınca imzaladığı sərəncamlar mədəniyyət və incəsənətimizin inkişaf etdirilməsində önəmli amillərdir.***

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə Azərbaycanda milli musiqimizin, muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində gerçəkləşən irimiqyaslı layihələr öz nəticəsini verir. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması, Muğam Mərkəzinin inşa edilməsi, "Muğam aləmi" festivalının təşkili, "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə nəşri və s. Azərbaycan muğam sənətinin inkişafına təkan olmaqla yanaşı, Azərbaycan və muğam sənəti ilə bağlı geniş təsəvvürün yaranmasına da səbəbdir. Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən beynəlxalq müsabiqə və festivallar da Azərbaycan milli mədəniyyətini Qərb dünyasına daha da yaxınlaşdırır. Beynəlxalq aləmdə keçirilən sərgilər və Azərbaycan mədəniyyət günləri Şərqlə Qərb mədəniyyətlərinin qovuşmasında bir körpü rolunu oynayır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda Beynəlxalq Muğam Festivalı, Mstislav Rostropoviç adına Musiqi Festivalı, VI Beynəlxalq "Qız Qalası" İncəsənət Festivalı, İkinci Beynəlxalq Aşıq Festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş beynəlxalq festivallar da Azərbaycanın real mənzərəsinin təbliğində önəmli rola malikdir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə gerçəkləşən mədəniyyət layihələri sırasında artıq ənənəyə çevrilmiş Qəbələ musiqi festivalının xüsusi yeri var. Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən dünya musiqiçilərini bir araya gətirdi. Azərbaycan diyarı və onun musiqisi haqqında çox məqamları qonaqlara təqdim edir.

### BEYNƏLXALQ MƏDƏNİ DİALOQUN ÜNVANI

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən festival dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə təsadüf edir. Elə builki festivalda da dahi bəstəkarın 140 illik yubileyinə həsr olunmuş proqram təqdim olunur. Ölkəmizdə ənənəvi olaraq təşkil edilən Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəniyyətimiz üçün əlamətdar hadisədir. 2009-cu ildən keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı artıq on dörd ildir ki, dünya musiqisinin müxtəlif simalarını bir məkanda toplayaraq, beynəlxalq mədəni dialoqun önəmli ünvanına çevrilib. Bu sənət bayramı təkcə klassik əsərlərin təntənəsi deyil, eyni zamanda, xalqları birləşdirən, sərhədləri aşan mənəvi dəyərlərin təcəssümüdür.

Festivalın açılış mərasimində izləyicilərə maraqlı proqram təqdim olunub. Həmin axşam Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş xüsusi konsert proqramı ilə yadda qalıb. Festival Üzeyir bəyin "Cəngi" əsəri ilə açılıb.

Musiqi tariximizin inciləri ilə dolu axşamda tanınmış bəstəkarların seçilmiş əsərləri səslənib. İzləyicilər Səid Rüstəmov, Vasif Adıgözəlov, Hacı Xanməmmədov, Ramiz Mirişli, Polad Bülbüloğlu, Emin Sabitoğlu, Süleyman Ələsgərov, Fikrət Əmirov, Fərhad Bədəlbəyli, Müslüm Maqomayevin və digər bəstəkarların əsərlərini, eləcə də xalq mahnılarını dinləyiblər.

Festival iyulun 29-dək davam edəcək. Bu günlərdə Qəbələ müxtəlif ölkələrdən gələn tanınmış ifaçıların, gənc istedadların, musiqi kollektivlərinin bir araya toplandığı musiqi səhnəsinə çevriləcək. Azərbaycanla yanaşı Latın Amerikası, Litva, Gürcüstandan dünyaşöhrətli musiqiçilər, dirijorlar və musiqi kollektivləri öz rəngarəng çıxışları ilə məharətlərini bir daha nümayiş etdirəcəklər. Festival çərçivəsində klassik musiqidən muğama, cazdan operaya qədər zəngin proqramlar təqdim olunacaq.

### QƏBƏLƏNİN DÜNYADAN EŞİDİLƏN SƏSİ

Qeyd edək ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən digər mədəniyyət layihələri kimi, Qəbələ festivalı da beynəlxalq sənət aləmində geniş rezonans doğurur. Bu festival sayəsində qədim Qəbələ dünyanın musiqi xəritəsində özünəməxsus yer qazanıb. Son illər Qəbələ çox gözəl və müasir şəhərə çevrilib. Gözəl hotellər, yollar, hava limanı və digər imkanlar tədbirlərin yüksək səviyyədə təşkil olunmasına şərait yaradıb. Bu gün Qəbələnin adı beynəlxalq tədbirlərin təşkil olunduğu şəhərlərin adları ilə bir sıra da çəkilməsi uğurlardan xəbər verir. Qəbələ kimi gözəl bir məkanda beynəlxalq musiqi festivalının keçirilməsi təqdirəlayiqdir. Bu, hər bir azərbaycanlının sevinc, qürur mənbəyidir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər il Qəbələdə keçirilən Beynəlxalq Festival artıq Azərbaycanın hüdudlarından kənarda geniş şöhrət qazanmış, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir. Bu ecazkar diyarda Şərq mədəniyyəti ilə bağlı olan məqamlar iştirakçılara cənnəti xatırladır. Açıq havada kamera, simfonik musiqini dinləmək, muğamın sehrinə düşmək elə cənnəti yaşamaqdır. Real mənzərə Azərbaycanın dünyada nüfuzunun gündən-günə artmasına dəlalət edir. Qədim tarixə və gözəl təbiətə malik Qəbələdə belə bir festivalın keçirilməsinin böyük əhəmiyyəti vardır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın himayəsi ilə keçirilən bu festivalda çox görkəmli ifaçıların iştirak etməsi mötəbər tədbirin əks-sədasının bütün dünyada çox geniş yayılmasına şübhə oyatmır. Qəbələ festivalı xarici qonaqlara Azərbaycan mədəniyyətini tanıtmaqla yanaşı, çoxsaylı yerli musiqisevərləri dünya bəstəkarlarının klassik əsərləri və məşhur musiqiçilərlə yaxından tanış edir. Bu festival həm də böyük maarifçilik missiyası daşıyır. Dünyanın hər yerindən Qəbələnin səsi gəlir, bu gözəl diyarda isə dünya musiqisi səsləndirilir. Azərbaycan xalqının yüksək mədəniyyətə sahib olduğunu bir daha təsdiqləyir. Festivalının açılışı böyük bir bayram əhvali-ruhiyyəsi bəxş edir. Təbii ki, mədəniyyət bütün dövrlərdə xalqlararası ünsiyyətin başlıca vasitəsi olub və müasir dünyamızda da baş verən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb edir.

Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı da mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Hər zaman Qəbələ Beynəlxalq Musiqi Festivalına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan bu gün də öz təcrübəsindən yararalanaraq, festivalı uğurla başa vuruacaqdır. Bu dəfə də gözəl təbiəti olan Qəbələdə klassik musiqi axşamları insanlarda xoş ovqat yaradacaq. Festivalda çox görkəmli ifaçıların iştirak etmələri mötəbər tədbirin əks-sədasını bütün dünyada çox geniş yayaraq, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevirir. Festival ildən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə yadda qalır. Festivalın proqramına uyğun olaraq Qəbələ səhnəsində Azərbaycanın və dünyanın dahi bəstəkarlarının əsərləri səsləndirilir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər də səhnəyə çıxırlar. Füsunkar təbiəti ilə hər kəsi öz sehrinə salan Qəbələ daha bir musiqi festivalına ev sahibliyi edərək, tarixinə yeni səhifə yazır.

***Zümrüd BAYRAMOVA***

# Etibarlı gələcəyimiz olan mübariz GƏNCLİK!



***Ulu Öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri, dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir. Ulu Öndər gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşmış, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermiş, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmişdir.***

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Qanunun qəbulu Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğının və etmadın nümunəsidir.

Vurğulayaq ki, Ulu Öndər Heydər Əliyev hələ ölkəmizə sovet dövründə rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. Ümumilikdə. ötən əsrin 70-ci illərində Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük dönüş yaratmış oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu.

## GƏNCLƏR SİYASƏTİNDƏ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ

Bu gün dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünki Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellekt yetişir. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri etmiş oldu. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır.

2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi barədə imzaladığı Fərman Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğını özündə təcəssüm etdirir. Gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili və s. məqsədilə "Gənclər Evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması da elə gənclərə dövlət qayğısıdır. İlk "Gənclər Evi" 2006-cı ildə Ağsu rayonunda fəaliyyətə başlasa da, sonradan onların sayı artdı.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir.

## İDMAN TƏDBİRLƏRİ ÜÇÜN BEYNƏLXALQ MƏKAN

Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına xüsusi diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı tezliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub.

Azərbaycan Prezidenti İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə, tezliklə öz müsbət nəticəsini verdi.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. "Hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq", - deyə Prezident diqqətə çatdırıb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. Dünyanın 17 gün ərizində izlədiyi bu elit Oyunlarda xalqımızın tolerantlığı, sülhsevərliyi, qonaqpərvərliyi dünyaya nümayiş etdirildi. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü.

Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib.

Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa ediləərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Bir gündə doğulub və eyni tale yaşayan ŞƏHİDLƏRİMİZ!







**Vətən müqəddəsdir. Heç bir məfhum bu qədər böyük mənanı ifadə edə bilməz. Sonu görünməyən bir sevgidir, vətən sevgisi. Dünyanın hansı qitəsində yaşasan da Vətən sənin üçün ən ülvi bir məkandır. Daşı da, qayası da sənə doğma və əzizdir. Vətən qarşısında hər kəs məsuliyyətlidir və onu müdafiəsində durmaq isə hər kəsin borcudur. Şərəfli və məsuliyyətli bir vəzifədir onu qorumaq və müdafiə etmək, lazım gələrsə, qan tökmək. Tökülən qan hədər getməz... Vətən öz torpaqlarını, sərhədini qoynuna aldığı və yetirdiyi övladları ilə qoruyur. İnsana verilən yaşamaq hüququndan keçənlər, Vətən yolunda şəhid olanlar ən yüksək zirvəyə yüksəlirlər. Qəhrəmanlıq və ərənlik məktəbi bu torpağın tarixinə yazılıb. Odur ki, tarixdən dərs alanlar bu torpağın qəhrəmanına çevrilirlər.**

Tarixi dönəmlərdə olduğu kimi, müasir dövrümüzdə də Azərbaycan oğulları öz qanları ilə Azərbaycan torpağı üzərinə "VƏTƏN" sözünü həkk edirlər. Son otuz ilin hadisələri bunu bir daha deməyə əsas verir. İstər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində minlərlə Azərbaycan oğulunun vətənin müdafiəsinə qalxması tariximizin səhifəsində qururlandırıcı bir salnamədir. Bir ailədən, bir obadan boy atanlar, Azərbaycan kimi məmləkətin əbədi dünyasının sakini oldular. Hər bir ailənin övladına çevrildilər.

## HƏYATIN QƏRİBƏ GƏRDİŞLƏRİ

Həyatın qəribə gərdişləri var. Ayrı-ayrı ailədə doğulub və bir xalqın övladına çevrilən, bir gündə anadan olub və eyni tale yaşayan oğullarımız var. Bu gün doğum günlərin qeyd etdiyimiz üç şəhidimiz haqqında söz açacağam. 26 iyul onların doğum günüdür. Vətənin harayına səs verən igid oğulların həyat hekayələrindən qısa bir şəkildə söz açacağam.

2016-cı il Aprel döyüşləri kimi tariximizdə yer alan hadisələr zamanı şəhidlik zirvəsinə yüksələn Rəşid Rövşən oğlu Mehdiyev. 26 iyul 1990-cı ildə Salyan rayonunda anadan olan Rəşid 26 yaşında ikən şəhidlik zirvəsinə yüksəlir. 2 aprel 2016-cı il onun şəhid olduğu tarixdir. 26 ildə qısa bir həyat yolu keçsə də onu tanıyanların yaddaşında silinməz izlər salıb. Rəşid Mehdiyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Arzularını artıq həyata keçirmək üçün addımlar atırdı. Əlbəttə ki, Rəşid orta təhsilini başa çatdırdıqdan sonra istənilən ali məktəbə daxil ola bilərdi. Lakin o, ali hərbi təhsil almağı, zabit kimi Vətənə xidmət etməyi, erməni tapdağı altında qalan torpaqlarımızın azad olunmasında yaxından iştirak etməyi qərara alır. Bu istəyi reallaşdırmaq üçün Rəşid 2008-ci ildə Heydər Əliyev adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə daxil olur və 2011-ci ildə həmin məktəbi bitirir.

Üzərinə düşən bütün vəzifələri şərəflə və ləyaqətlə yerinə yetirərək tez bir zamanda baş leytenant rütbəsini alır və Gəncədə yerləşən "N" saylı hərbi hissədə taqım komandiri kimi xidmət edir. 2016-ci il Aprel döyüşləri zamanı Rəşid ərizə yazaraq könüllü olaraq döyüşlərə qoşulur. Rəşid topçu kimi ordumuzun aprelin 2-də işğaldan azad etdiyi Talış kəndi ətrafındakı yüksəkliklər yaxınlığında ermənilərin bir neçə texnikasını sıradan çıxarır. Nəticədə, baş leytenant Rəşid Mehdiyev 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olur.

Bir ananın dilindən süzülüb gələn bayatını vurğulamaq yerinə düşər:

Əziziyəm Salyana,
Rəşid gəlməz Salyana.
Necəsən bir ha çəkim...
Kür quruya, Sal yana.
Əzizim meyxanəyə,
Şeh düşüb meyxanəyə,
26 il bala saxladım,
Çıxarmadım toyxanəyə

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Rəşid Mehdiyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

## DİLLƏRDƏ DASTANA

## ÇEVRİLƏN ŞƏRƏFLİ YOL

Elimdar Səlimxan oğlu Səfərov. Artıq şəhidlik zirvəsində yer alan vətən oğlunun keçdiyi qısa və şərəfli yol dillərdə dastana çevrilib. 26 iyul 1992-ci ildə dünyaya gəlib. Yardımlı rayonunda yayın isti günündə. Tale elə gətirir ki, o da Aprel döyüşünün şəhidinə çevrilir. 2 aprel 2016-cı ildə şəhid olur. Eyni gündə anadan olub, eyni gündə şəhid olan vətənin iki şəhid övladı: Rəşid və Elimdar. Cəmi 24 qış, 24 bahar yaşasa da böyük bir hekayəsi var. Vətənə bağlı oğul idi. Deyilənə görə, çox güclü idi, onun qollarını heç kim qatlaya bilməzdi. Bütün yarışlarda, əməliyyatlarda hər zaman birinci idi. Vətənə, Bayrağa, İslami dəyərlərə çox bağlılığı onun ətrafında olan insanlara sevdirmişdir. Bu sevgi ondan düşmənə qisas almağa güc verdi.

Vətən torpağının azadlığı hər bir şeydən üstündür. Azərbaycan belə oğulları ilə fəxr edir. Azərbaycan Silahlı Qüvvələrinin giziri idi Elimdar. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

Daha bir şəhid övladımız - Toğrul Səyyad oğlu Məmmədov. Toğrul da tarixin bu günü dünyaya göz açıb. Toğrul 14 iyul 2016-cı ildə Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olub.

Onun tərcümeyi-halına həkk edilən yazıları oxuyuruq: Toğrul Məmmədov 1988-ci ilin 26 iyul günündə Babək rayonunun Şıxmahmud kəndində anadan olub. Orta təhsilini Şıxmahmud kənd tam orta məktəbində alıb, 2002-ci ildən Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Hərbi Liseydə davam etdirmiş və 2005-ci ildə buradan məzun olmuşdur. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş və 2009-cu ildə leytenant hərbi rütbəsi ilə burada təhsilin sonna yetirmişdir. Daha sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində 1 illik ixtisasartırma kursu keçmişdir.

Kapitan Toğrul Məmmədov 2016-cı ilin iyulun 14-ü Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid olur. İyulun 15-i isə Toğrul Məmmədov doğulduğu Babək rayonunun Şıxmahmud kəndində son mənzilə yola salınır.

Uşaqlıqda valideynlərini itirən Toğrul çox erkən ailəyə başçılıq edib. Balaca qardaş və bacısına ata, ana olmaq nə qədər çətin olsa da buna qatlaşmalı olur. Sonradan isə Azərbaycana oğul olur. Demək, sədaqət ocağa xidmətdən başlayır. Ailəsini, ocağını sevən, Vətənini də sevər. Ona oğul olar. Azərbaycanın qəhrəman olğu Toğrul kimi.

Vətən sevgisi neçə-neçə vətən oğlunun ömrünü, arzularını yarımçıq qoysa da, böyük bir arzularını gerçəkləşdirdi. 44 günlük Vətən müharibəsində bütün şəhidlərimizin qisası alındı. İşğal altında olan torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. Otuz ilə yaxın həsrətdən sonra doğma yurdlarımıza qovuşduq, ərazi bütövlüyümüz təmin olundu. Dövlət, xalq və ordu birliyi dəmir yumruq olub düşmənin başını əzdi. Azad torpağımızda şəhidlərimizin ruhu da azadlığa qovuşub.

## MÜTƏŞƏKKİL, VƏTƏNPƏRVƏR VƏ MÜBARİZ GƏNCLİK

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühitinin formalaşması gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlərin uğurla həyata keçirilməsinin təzahürüdür. Dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Bugünki gənclik azad fikirli və düşüncəli, cəsarətli, bilikli, vətənpərvər gənclikdir. Müstəqil dövlətin nümayəndəsi kimi dünyaya çıxan və müxtəlif səpkili tədbirlərin iştirakçısı olaraq qabiliyyət əldə edən, kreativ gənclikdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən böyük bir ordudur. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu gün Azərbaycan belə oğulları ilə qürürlanır, fəxr edir. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olmasını qorumaq və saxlamaq üçün gənclər yaxşı təhsil almalı, çox çalışmalı, peşələrinə yaxşı yiyələnməli, vətənpərvər olmalıdırlar. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Bu, Qarabağla, onun dirçəldilməsi ilə bağlı mənəvi məsuliyyətdir. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Rusiyanın bu addımı müəyyən mənada başadüşüləndir”



*“Rusiya Azərbaycanla gərginliyi azaltmaq və problemləri həll etmək əvəzinə, indi də bəzi politoloqları və deputatları önə sürür. Açıq şəkildə anti-Azərbaycan isteriyasını alovlandırmaq məqsədi daşıyan bu çıxışlar çox zaman təhqir və hədələrlə müşayiət olunur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib.*

MÜNASİBƏT

Turan Rzayev sözlərinə belə davam edib: “Aydın məsələdir ki, Rusiyada bəzi deputatların, politoloqların və mediada çıxış edən ekspertlərin son dövrlərdə sərgilədiyi anti-Azərbaycan ritorikası bəzi istisnalar xaric fərdi fikirlər deyil. Bu, açıq şəkildə Kremlin informasiya sistemində vahid mərkəzdən gələn tapşırığın nəticəsidir. Ritorika ilk baxışdan fərdi təşəbbüs kimi təqdim olunsa da, əslində dövlətin rəsmi mövqe bildirmədən bu çıxışlara susqun yanaşması, həmin ritorikanın Kremlin qeyri-rəsmi mövqeyi ilə üst-üstə düşdüyünü göstərir. Əgər məsələyə nə Kremlin sözçüsü, nə Xarici İşlər Nazirliyi, nə də digər təsirli rəsmi dairələr tərəfindən təkzib və ya sərt reaksiya verilmirsə, bu, həmin ritorikanın dövriyyədə qalmasına razılığın nümayişidir. Susmaq burada neytrallıq deyil, yumşaq şəkildə təşviqdir.Rusiyanın bu addımı müəyyən mənada başa düşüləndir. Cəmiyyətdə anti-miqrant ovqatının körüklənməsi, konkret etnoslara qarşı kollektiv nifrətin formalaşdırılması, dövlətin mövcud sosial-iqtisadi problemlərdən diqqəti yayındırmaq üçün köhnə üsullara yəni “günah keçisi” obrazına qayıtdığını göstərir.

Azərbaycana və ümumiyyətlə Qafqazdan olan xalqlara qarşı yönəlmiş ritorika əslində Rusiya cəmiyyətində artan sosial narazılığın ünvanının bilərəkdən dəyişdirilməsidir. Tarix isə bu yanaşmanın çox təhlükəli nəticələr doğurduğunun şahididir. Məsələn, 1930-cu illərdə Almaniyada yəhudilərə qarşı aparılan sistemli nifrət kampaniyası əvvəlcə media və siyasi ritorika ilə başladı, daha sonra isə hüquqi və fiziki repressiyalara çevrildi. Bu gün Rusiyada isə miqrasiya, korrupsiya, iqtisadi durğunluq və beynəlxalq təcrid kimi real problemlər fonunda hədəfə diasporlar və “xarici mənşəli” vətəndaşlar göstərilir. Azərbaycanlılara qarşı səsləndirilən nifrət ritorikası, əslində, sabah digər etnosların da hədəfə alınacağı mesajını verir. Bu isə təkcə Azərbaycanla münasibətlərə deyil, ümumilikdə Rusiya Federasiyasının çoxmillətli sabitliyinə təhlükə yaradır.

Bu mənzərə göstərir ki, Rusiya Cənubi Qafqazda artan Türkiyə və Qərb təsirindən ciddi narahatdır. Azərbaycanı “cəzalandırmaq” üçün ictimai rəyin yönünü dəyişdirməyə çalışırlar. Lakin bu, nə ikitərəfli münasibətlərə, nə də regional sabitliyə fayda verəcək. Əksinə, bu ritorikanın davamı Azərbaycanın Rusiya ilə münasibətlərdə daha ehtiyatlı və məsafəli mövqe tutmasına səbəb olacaq”.

***Ayşən Vəli***

# Borcunu qaytarmayan adamı nə gözləyir?



VƏKİL AÇIQLADI

“Mülki Məcəllənin 743.1-cü maddəsinə əsasən, kredit müqaviləsinə görə borcverən pul vəsaitinə mülkiyyət hüququnu müqavilədə göstərilən məbləğdə və şərtlərlə borcalana verməyi, borcalan isə aldığı pul vəsaitini müqavilədə müəyyən edilmiş müddətə faizlərin və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə borcverənə qaytarmağı öhdəsinə götürür”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Turan Abdullazadə sözlərinə belə davam edib: “Kredit müqaviləsi üzrə borcverən yalnız normativ hüquqi aktlara uyğun olaraq kreditlərin verilməsi fəaliyyətinin həyata keçirilməsi hüququna malik şəxs ola bilər.

Mülki Məcəllənin müvafiq müddəalarına əsasən, öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür. Öhdəliyini icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. Borclu icranı gecikdirdikdə kreditor ona öhdəliyin icrası üçün zəruri vaxt təyin edə bilər. Əgər borclu öhdəliyi bu müddətdə də icra etməzsə, kreditor öhdəliyin icrası əvəzinə zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

İcranı gecikdirmiş borclu gecikdirmə nəticəsində vurduğu zərər üçün və gecikdirmə zamanı təsadüfən baş vermiş icra mümkünsüzlüyünün nəticələri üçün kreditor qarşısında məsuliyyət daşıyır. Əgər ikitərəfli müqavilənin bir tərəfi müqavilədən irəli gələn öhdəlikləri icra etmirsə, müqavilənin digər tərəfi öhdəliklərin icrası üçün təyin etdiyi əlavə müddət nəticəsiz qurtardıqdan sonra müqavilədən imtina edə bilər. Əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir.

Özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir.



Qanunda və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini qərarın çıxarıldığı gün üçün bank uçot dərəcəsini əsas götürməklə təmin edə bilər.

Vətəndaş bankdan götürdüyü krediti ödəmədikdə, bank və ya kredit təşkilatı müəyyən hüquqi tədbirlər görə bilər. Kreditin ödənişi gecikdikdə, bank əvvəlcə borcluya yazılı və ya telefon vasitəsilə xəbərdarlıq edir. Müqavilədə nəzərdə tutulmuş gecikmə faizləri hesablanır və əsas borca əlavə olunur. Borc uzun müddət ödənilməzsə, bank notarial qaydada və ya məhkəmədənkənar qaydada borcluya rəsmi bildiriş göndərir. Kredit müqaviləsində təminat (zamin, girov və s.) varsa, həmin şəxslərə də bildiriş göndərilə bilər. Bildirişdən sonra borcun ödənilməsindən yayınılarsa bank borcun qaytarılması üçün məhkəməyə müraciət edə bilər. Məhkəmə qərarı əsasında borcun məcburi qaydada ödənilməsi həyata keçirilir. Məhkəmə qərarı qüvvəyə mindikdən sonra icra məmurları işə qoşulur. Borclunun əmək haqqına, bank hesablarına və daşınar-daşınmaz əmlakına həbs qoyula bilər. Zamin varsa, öhdəlik ona da şamil oluna bilər. Borcunu ödəməyən şəxslər Mərkəzi Bankın Kredit Reyestrində və ya AzerCreditNet kimi kredit bürolarında “pis kredit tarixçəsi” ilə qeydə alınır. Bir növ qara siyahıya alına bilər. Həmin şəxslər üçün gələcəkdə kredit almaq çətinləşir. Əgər kredit girovla təmin olunubsa (məsələn, ipoteka), məhkəmə və icra prosesi nəticəsində ipoteka qoyulmuş əmlak satıla bilər. Yalnız qəsdən dələduzluq (məsələn, saxta sənədlərlə kredit almaq) hallarında CM-nin 178-ci maddəsi (dələduzluq) ilə cinayət işi başlana bilər. Sadəcə borcu ödəyə bilməmək (maliyyə çətinliyi səbəbilə) cinayət məsuliyyəti yaratmır. Bundan başqa borcun ödənilməməsinə görə borclunun ölkədən çıxışına məhdudiyyət də qoyula bilər”.

***Ayşən Vəli***



Mətanət Məmmədova

# Həyəcan siqnalı: əmisiz-xalasız nəsil formalaşır

***Dayı-xalanın, əmi-bibinin hər birinin olması üçün ailədə ən azı dörd uşağın dünyaya gəlməsi lazımdır. Ki, sabah bu uşaqlar böyüyüb ailə qurduqdan sonra onların qardaş-bacıları dünyaya gələcək övladlarının dayı-xalası, əmi-bibisi olsun. Bu, lap əvvəllər idi, ailələrdə 3-11, hətta daha çox uşaq dünyaya gəlirdi. Aramızda 3-5 dayısı, 4-5 xalası, bu sayda, hətta bundan bir qədər az və çox əmi-bibisi ola yüzlərlə insan var idi. Bəs son illər necədir? Övladlarımızın hər birinin dayı-xalası, əmi-bibisi varmı? Biz onlardan nəyi əsirgəyirik, nələrin dadını dadmağı onlara çox görürük? Gələcək həyatlarında onları nə üçün tək qoyuruq?***

Bütün bu qənaətlərə 26 iyulun Beynəlxalq Əmilər (dayılar) və Xalalar (bibilər) Günü olması ilə gəldim. Maraqlıdır, dayılar-əmilər və xalalar-bibilər günü... Bu xüsusi gün dayı-əmilərin və xala-bibilərin sevgi dolu münasibətlərini qeyd etməyə həsr olunub. Çünki onların hər biri uşaqların həyatında da mühüm fiqurlardır və ailə bağlarının ayrılmaz hissəsidir. Beynəlxalq Dayılar (əmilər) və Xalalar (bibilər) Günü insanları bu yaxınlarını xatırlamağa, onlara təşəkkür etməyə və münasibətləri möhkəmləndirməyə təşviq edir. Bu gün həm də dayı-əmi və xala-bibi olmağın nə demək olduğunu vurğulayaraq, sevgi və dəstəkləyici ailə mühitinin dəyərini özündə ehtiva edir. Dayı-əmilər və xala-bibilər uşaqların həyatına töhfə verir və onların böyümə prosesində mühüm rol oynayır. Məhz bu qiymətli münasibətləri xüsusi günlə qeyd etmək vacibdir.

Əlbəttə, hər bir uşağın həyatında dayı-əminin, xala-bibinin nə qədər böyük əhəmiyyətə malik olduğunun hər birimiz şahidi olmuşuq. Lakin gəlin, görək, bu sevgi dolu gündən dünyada və ölkəmizdə neçə uşaq məhrumdur? Və həmin günün sevincini dayı-əmisi, xala-bibisi ilə birlikdə yaşaya bilirmi?.. Kaş ki bunun da statistikası olardı, bəlkə rəqəmlər bizi qəflət yuxusundan oyadardı.

Bu gün bütün dünyada uşaq doğumu ildən-ilə azalır. Avropa ailələrində illər öncə 2-3 uşaq dünyaya gəlirdisə, artıq müasir dövrdə bu say 1-ə enib. Elə biz də qapılarımızı Avropanın üzünə taybatay açdığımızdan və onların ailə dəyərlərimizi yerlə yeksan edən “dəyərlərinə” boyun əydiyimizdən son 20-30 ildə ailələrimizdə uşaqların sayı azalmağa başladı. Sanki ailə quran cütlüklər qarşılarına məqsəd qoydular ki, bizim iki övladımız olmalıdır: biri oğlan, biri qız. Və zaman-zaman belə də oldu. İndi əksər ailələrdə yalnız iki uşağın doğulması mümkündür. O halda iki uşaqdan çox uşağı olan ailələr ola bilər ki, orada birinci qız doğulsun və oğlanın dünyaya gəlməsinədək bu proses davam etsin: məsələn, iki qız, bir oğlan. Bu da çox təsadüfi hallarda olur. Çünki USM müayinələri ildən-ilə daha da təkmilləşir və dölün cinsiyyətini daha dəqiq göstərməklə, valideynləri bu “problemdən” “xilas” edir.

Beləliklə, nə baş verir? Əlbəttə, biri qız, biri oğlan olan övladlarımızın gələcəkdə öz övladlarının əmi və xala problemi. Bəlkə də bu çoxları üçün adi görünə bilər. Bəlkə də “olur olsun, olmur da olmasın”,- deyib soyuqqanlıqla ötənlər də olar. Lakin məsələnin mahiyyətini dərk edəndə bunun əsaslı problem olduğunu anlamaq bir o qədər çətin deyil. Biz övladlarımızı əmi və xala kimi yaxın qohumlardan məhrum edirik. Onların ətrafında doğma insanların azalmasına səbəb oluruq. Sabah dünyamızı dəyişəndən sonra onların tamamilə tək qalmasına bu gündən şərait yaradırıq. Axı əmi-xalalar hər zaman gənclərin yolgöstərəni olub, hər hansı çətinliklə qarşılaşanda ağsaqqal- ağbirçək kimi onlara müraciət edib məsləhət alıblar. Ən xüsusi günlərində onları yanlarında görüb, qayğısı, nəvazişi ilə böyüyüblər. Bu gün bir oğlumuz və bir qızımız sabah bir-birinin övladlarının dayısı və bibisi olacaq. Bəs əmi və xala? Onlar kim olacaq?

Düşünürəm ki, bu barədə ciddi şəkildə fikirləşmək lazımdır. Buna müvafiq qurumların ailələrlə, xüsusilə analarla işini gücləndirməsi, maarifləndirməni artırması, bir də ən əsası, selektiv abortların ləğvi ilə nail olmaq olar.

Beləliklə, həyəcan təbili çalmaq lazımdır. Çünki ailədə neçə uşağın olması, göründüyü kimi, gələcək genefonda vurduğu zərbələrə yanaşı, həm də yeni bir nəslin formalaşmasına səbəb olur: əmisiz və xalasız nəslin.

# Azərbaycan bölgədə əsas logistika mərkəzi olacaq

## *Dövlət başçısı İlham Əliyev III Şuşa Qlobal Media Forumunda bir daha bu reallığı diqqətə çatdırdı ki, coğrafiyadan yaxşı məqsədlər üçün istifadə edilməlidir*

***“Amma coğrafiya heç də hər zaman o demək deyil ki, coğrafi mövqeyiniz sizə tərəqqi gətirəcəkdir. Siz coğrafiyanızdan yaxşı məqsədlər üçün istifadə etməlisiniz. Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir.***

Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim çox böyük artım potensialımız var.» Dövlət başçısı İlham Əliyev Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumundakı çıxışında səsləndirdiyi fikirlər özündə mühüm çağırışları əks etdirir. Azərbaycanın coğrafi mövqeyi onun ölkələr, xalqlar arasında körpü rolunu şərtləndirir. Azərbaycan tranzit ölkə kimi dünyanın diqqətindədir.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Bu mühüm məqamı da qeyd edək ki, cənab İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı» təsdiq edildi. Fəaliyyət Proqramında bu mühüm məqam öz əksini tapır ki, Azərbaycanda nəqliyyat və logistika sahələrinin inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması, ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialından tam istifadənin təmin edilməsi ilə bağlı tədbirləri özündə ehtiva edən “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” və “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” təsdiq edilmişdir. Son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi marşrutlarda yaranmış problemlər Azərbaycan ərazisindən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcmində kəskin artıma səbəb olmuşdur.

Dövlət başçısı İlham Əliyevin çıxışlarında daim bu mühüm məqam da xüsusi qeyd edilir ki, açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib. Tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir. Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

Dövlət başçısı İlham Əliyev çıxışlarında bu mühüm məqamı bildirir ki, istəyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. İstəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri, biznes imkanları yaradılsın, sərmayə qoyulsun. Bunun üçün hüquqi baza var. Sənaye zonaları artıq uzun illərdir ki, fəaliyyət göstərir. Ələt Azad İqtisadi Zonasının rəsmi açılışı oldu və dövlət tərəfindən qoyulan sərmayə artıq nəticə verməyə başlamışdır. Özəl investorlar da artıq cəlb edilib və bunun nəticələrini görürük.

Dünyanın 100 möhtəşəm layihəsi siyahısına daxil edilən, Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən neft- qaz kəmərlərindən sonra qitələri birləşdirən önəmli layihə kimi dünya birliyinin diqqətini cəlb edən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Azərbaycanın tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirdi. Təkcə Azərbaycan deyil, bölgə dövlətləri üçün siyasi, iqtisadi, strateji baxımdan böyük əhəmiyyət daşıyan, Çindən başlayaraq Londona qədər uzanan Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanları yaranır.

Xəzər hövzəsindəki karbohidrogen ehtiyatlarını dünya bazarına çıxaran Azərbaycan yükdaşımalarının təminatında da logistik mərkəz rolunu oynamaqla regional əhəmiyyətini artırır. Ölkəmizin təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Qars, Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizlərin, eləcə də Beynəlxalq Trans-Xəzər Nəqliyyat Marşrutu kimi layihələr təkcə iqtisadi səmərəsi ilə deyil, ölkələrarası əməkdaşlığın genişləndirilməsi baxımından da diqqət çəkir. Reallaşan hər bir layihə isə respublikamızın dünya birliyində siyasi, iqtisadi əhəmiyyətini artırmaqla, enerji və nəqliyyat təhlükəsizliyinin təminatındakı rolunun əvəzedilməzliyini göstərir. Prezident İlham Əliyev vurğulayır ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan, gəlir gətirən layihələr həm də başqa ölkələrin iqtisadi inkişafı üçün əlavə imkanlar yaradır. «Lakin uzunmüddətli investisiyalara gəldikdə əsas məqsəd elə bir infrastrukturun yaradılmasıdır ki, o, uzun zaman ərzində fəaliyyət göstərsin və ölkəni dəyişmiş olsun, dünyanın ölkəyə münasibətini dəyişmiş olsun. Çünki bu infrastruktur layihələri olmadan Azərbaycanın coğrafi mövqeyinin bir o qədər də böyük mənası yoxdur. Biz ölkələri və insanları birləşdirməyə nail olmuşuq. Sizə deyə bilərəm ki, nəqliyyatla bağlı infrastruktur layihələri regionumuzda tamamilə yeni siyasi vəziyyət yaradır. Bir-birindən asılı olan ölkələr; biri tranzit ölkəsindən asılıdır, digəri tranzit ölkəsi olur, əlbəttə ki, onlar arasında daha yaxın münasibətlər yaranır. Onlar faydaları paylaşır, onlar bütün tərəflərin uduzmadığı bir vəziyyət tapa bilir» söyləyən dövlət başçısı İlham Əliyev onu da əlavə edir ki, təkcə ikitərəfli yox, çoxtərəfli formatda da Xəzər dənizi vasitəsilə qitələrin birləşdirilməsi, Bakıda dəniz limanının tikintisi, dəmir yolu sisteminin Avropa strukturları ilə birləşməsi yeni əməkdaşlıq formatını yaradır: “Bizim hədəfimiz Azərbaycanda müasir infrastruktur yaratmaq və ölkəni müasirləşdirməkdir. Eyni zamanda, məqsədlərimizə - siyasi, iqtisadi və maliyyə məqsədlərimizə fəal əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə nail olmaqdır.”

Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olan Azərbaycan Çin hökumətinin “Bir kəmər, bir yol” təşəbbüsünü daim dəstəkləyir, qonşu ölkələrin qlobal layihələrə qoşulmaq istəklərini yüksək dəyərləndirir. Çünki Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir ki, infrastrukturun yenilənməsi ilə Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanı respublikamızın ərazisindədir. Başqa sözlə deyilsə, Avropa və Asiya arasında əlaqə yaradan Bakı-Tbilisi-Qars əraziləri yaxınlaşdırmaq istəyənlər üçün ən səmərəli yoldur.



Asiya və Avropanı birləşdirən yeni marşrutların keçdiyi əsas ölkələr arasında Azərbaycanın ön sıralarda yer alması təsadüfi deyil. Dünyanın ən böyük iqtisadiyyatına malik ölkələrdən biri olan, ixrac həcminə görə beynəlxalq reytinq cədvəlində ilk pillədə qərarlaşan Çinin Avropa, eləcə də Qara dəniz, Aralıq dənizi hövzəsində yerləşən ölkələrlə nəqliyyat xətləri vasitəsilə birləşməsində Azərbaycan getdikcə daha vacib rol oynayır. Burada o da xüsusi qeyd edilməlidir ki, Azərbaycanın malik olduğu nəqliyyat infrastrukturu, o cümlədən dəmir yolları Çinin “Bir kəmər, bir yol” təşəbbüsünün vacib hissəsidir. Dövlət başçısı İlham Əliyev Forumdakı çıxışında da bu məqamlara diqqət yönəltdi. «Mən ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirirəm. Son dövrlərdə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub. Bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində görüşlərimiz baş tutub, həmçinin iki mühüm sənədi qəbul etdik və imzaladıq. Ötən il bu sənəd “Strateji tərəfdaşlıq haqqında Bəyanat”, bu il isə “Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” olmuşdur. Bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir. Çin Xalq Respublikası ilə bu səviyyədə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmağımız bizi çox sevindirir» söyləyən cənab İlham Əliyev onu da əlavə etdi ki, artıq Çinin bir çox şəhərlərindən Azərbaycana və Azərbaycan ərazisindən Qərbə konteyner qatarları göndərilir. Bu qatarların sayı ildənilə hətta onlarla faiz artmaqdadır. Yaxın zamanda bu göstəricilər dəfələrlə artacaq. Biz cənab Si Cinpinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik. Çin şirkətləri Günəş elektrik stansiyalarının tikintisi layihələrinin reallaşmasında podratçı qismində fəal iştirak edirlər. İnvestor şirkətlər tərəfindən alınan Günəş panelləri Çin istehsalıdır. Son dövrlərdə biz, həmçinin Çin şirkətləri ilə bərpaolunan enerji – Günəş və külək enerjisi sahəsində əməkdaşlığa başlamışıq. Artıq müvafiq sazişlər imzalanıb və düşünürəm ki, bu sahə də qarşılıqlı faydalı əməkdaşlığımıza mühüm töhfə verəcək. Çin Xalq Respublikası tərəfindən Mərkəzi Asiyada maliyyələşdirilən yeni dəmir yolu arteriyaları Xəzər dənizindən Azərbaycana və daha sonra beynəlxalq marşrutlar üzrə yük axınlarının həcminin artmasına şərait yaradacaq. O da vurğulandı ki, bu yol Azərbaycanı Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirir və oradan Körfəzə çıxış yolu ilə İran ərazisinə keçir. Yəni, Zəngəzur dəhlizinin reallaşması ilə biz mahiyyət etibarilə Şimal-Cənub dəhlizinin başqa istiqamətini açacağıq: «Təkcə hamının haqqında danışdığı bir istiqamətə - Rusiyadan Azərbaycan vasitəsilə İrana, Rəştə deyil, həm də Şərqi Zəngəzur və Zəngəzur bölgəsinin digər hissələrindən İrana, oradan da Türkiyəyə. Ona görə də yük axınının həcminin artırılması üçün böyük perspektivlər açılır.»

Cənubi Qafqazın ən böyük və perspektivli dövləti, Şərqlə-Qərbin qovşağında unikal coğrafi geosiyasi şəraitə malik olan Azərbaycan bu gün regionda gedən əsas proseslərin və transmilli maraqların mərkəzində dayanmaqla geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri, böyük şirkətləri üçün cəlbedici tərəfdaşa çevrilib. Prezident İlham Əliyevin həyata keçirdiyi yeni iqtisadi strategiya ölkənin bütövlükdə iqtisadiyyatının şaxələndirilməsinə və xüsusən də iqtisadiyyatın bütün digər sahələrinin inkişafına yönəldilib. Logistika və ticarət isə sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, əsas sektorlarda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Hesablamalar göstərir ki, inkişaf etmiş nəqliyyat və logistika sistemi ümumi daxili məhsulda birbaşa artıma imkan verir.

Göründüyü kimi, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət bu reallığı yaratmışdır. Bu gün nəqliyyat sektorumuz həm müasir, həm də ölkə qarşısında duran vəzifələri icra etməyə imkan verir. Eyni zamanda, bu sahəyə qoyulan milyardlarla dollar səviyyəsində sərmayələr artıq bizim qeyri-neft iqtisadiyyatımıza öz müsbət təsirini göstərir. Nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5-10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulub. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»də də möhkəm iqtisadi təmələ əsaslanan ölkəmizdə qarşıdakı on il üçün görüləcək işlər, icra mexanizmi tam aydınlığı ilə göstərilib. Qarşıdakı illərdə həyatımızın bütün sahələrinə bələdçilik edəcək sənəddə qüdrətli dövlət, yüksək rifah cəmiyyətinin inkişafı naminə müəyyənləşdirilən vəzifələr elmi cəhətdən təhlil edilir. İşğaldan azad edilmiş ərazilərin bərpası, erməni vandalları tərəfindən dağıdılmış yaşayış məskənlərinin müasir şəhərsalma qaydalarına uyğun görkəmə salınması, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaqla, nəzərdə tutulan vəzifələrin həlli Azərbaycanın inkişafına böyük təkan verəcək.

***Yeganə Əliyeva***



EKSPERT AÇIQLADI

# Ali məktəbi bitirənlər niyə magistratura üzrə təhsil almaq istəmirlər?



“Azərbaycanda ali məktəbi bitirənlərin magistratura təhsilinə maraq göstərməməsi, təkcə şəxsi seçim və ya maddi imkan məsələsi deyil, daha dərin və sistemli problemlərin nəticəsidir. Bu, təhsil sistemində uzun illər yığılıb qalmış struktur qüsurların, qeyri-effektiv planlaşdırmanın və əmək bazarına bağlılığın zəif olmasının göstəricisidir. Təəssüf ki, Elm və Təhsil Nazirliyi bu problemi sadəcə statistik məlumat kimi təqdim edir, amma onun səbəbləri ilə bağlı ciddi təhlil, maarifləndirmə və strategiya ortaya qoymur”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: “Dövlət İmtahan Mərkəzinin 2024-cü il üzrə açıqladığı məlumatlara əsasən, magistratura səviyyəsinə sənəd verənlərin sayı 20 min nəfərdən az olub, qəbul olanların sayı isə daha az – təxminən 12–13 min civarındadır. Halbuki, həmin il bakalavr pilləsini bitirənlərin sayı 40 minə yaxın olub. Yəni, ali məktəbi bitirənlərin yalnız 30 faizindən bir qədər çoxu təhsilin ikinci pilləsində təhsilini davam etdirmək istəyib. Bu isə o deməkdir ki, sistem daxilində mövcud olan magistratura pilləsi faktiki olaraq ciddi sosial və akademik cazibə yaratmır. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsində ali təhsilin struktur pillələri təsbit olunub və burada qeyd edilir ki, magistratura pilləsi mütəxəssisin elmi-tədqiqat və nəzəri hazırlıq səviyyəsinin formalaşdığı mərhələdir. Amma təhsil müəssisələrinin əksəriyyətində bu pillə nə tədqiqat bacarıqları formalaşdırır, nə də məzunu əmək bazarında rəqabətə davamlı edir. Əksər hallarda magistrantlar eyni bakalavr dərslərinin davamını təkrarlayır, seminar və təqdimatlarla süni yüklənir, lakin real peşə və analitik bacarıqlar qazana bilmirlər. Bu isə tələbənin əlavə iki il vaxt və resurs sərf etməsini mənasızlaşdırır.

Əmək bazarında magistr dərəcəsinin rəqabət üstünlüyü yaratmaması da ciddi problem olaraq qalır. Dövlət və özəl sektorun əksəriyyəti maaş və vəzifə yüksəlişi baxımından magistr diplomunu nəzərə almır. Bir çox hallarda işəgötürənlər üçün iş təcrübəsi və bacarıq səviyyəsi daha vacib sayılır, akademik dərəcə isə formal sənəd olaraq qəbul olunur. Bu isə gənclər arasında belə bir düşüncəni gücləndirir: “Magistr oxusam da, iş tapa bilməyəcəm və ya əlavə qazancım olmayacaq”. Bu psixoloji etibarsızlıq nəticəsində magistratura yalnız dövlət proqramlarına düşmək istəyənlər, müəllimlik və ya akademik sahəyə yönəlmək istəyənlər üçün maraqlı olur. Bu isə sistemin çox dar auditoriyaya xidmət etməsi deməkdir.



Magistratura pilləsində təqaüd və maliyyə dəstəyi də ciddi tənqid mövzusudur. Mövcud məbləğlər nə yataqxana haqqını, nə nəqliyyat, nə də gündəlik xərcləri qarşılamağa kifayət edir. Ailəsi olmayan və ya işləməyən tələbə üçün bu təqaüd sosial təminat rolunu yerinə yetirə bilmir. Üstəlik, ödənişli əsaslarla təhsil alanların əksəriyyəti bu məbləğdən tamamilə kənarda qalır. Belə şəraitdə, əlavə maddi yük altına girib ikinci dəfə oxumaq cəlbedici olmur.

Dünya təcrübəsinə nəzər saldıqda isə tam fərqli yanaşmalar müşahidə edilir. Məsələn, Almaniyada magistratura pilləsi akademik və peşəkar ixtisaslaşmanın əsas mərhələsi sayılır və əksər sahələrdə bu dərəcə olmadan nə işə qəbul mümkündür, nə də dövlət strukturunda karyera yüksəlişi. İsveç və Norveçdə magistr proqramları dövlət tərəfindən tam maliyyələşdirilir və tələbəyə geniş tədqiqat imkanları təqdim olunur. Koreyada isə texnologiya və mühəndislik sahəsində magistrlar yüksək maaşlı dövlət proqramlarına və startap təşəbbüslərinə cəlb olunur. Bu ölkələrdə təhsil dövlətin iqtisadi inkişaf strategiyası ilə birbaşa əlaqələndirilir. Azərbaycanda isə magistratura dövlət strategiyalarından kənarda qalan, sosial və təhsil sisteminin zəif halqası kimi qalıb.

Bütün bu problemlərin fonunda Elm və Təhsil Nazirliyi bu istiqamətdə nə təhlil aparır, nə də maarifləndirici fəaliyyət göstərir. Tələbələrə magistratura oxumağın real üstünlükləri izah edilmir, statistika paylaşılmır, məzunların uğur hekayələri cəmiyyətə təqdim olunmur. Nazirliyin rəsmi saytında, ictimai hesabatlarında magistratura pilləsi ilə bağlı proqnoz, islahat strategiyası və ya pilot layihə yoxdur. Bu isə sistemin öz ikinci pilləsinə belə inam bəsləmədiyini göstərir.

Magistratura təhsilinə marağın artırılması üçün yalnız təqaüd artımı və təbliğat kifayət etməyəcək. Bunun üçün:

– magistr diplomunun əmək bazarında hüquqi və maliyyə baxımından üstünlük qazandırması üçün normativ aktlar yenilənməlidir,

– universitetlər bu pillədə elmi tədqiqat, beynəlxalq mübadilə və praktik yönümlü modullarla zəngin proqramlar təqdim etməlidir,

– işəgötürənlərlə əməkdaşlıq çərçivəsində birgə layihələr, təcrübə proqramları və mentorlara əsaslanan sistem qurulmalıdır,

– tələbələr üçün magistratura sonrası karyera yolları və akademik inkişaf imkanları ictimaiyyətə aydın şəkildə təqdim olunmalıdır.

Əgər bu yanaşmalar həyata keçirilməzsə, hər il minlərlə gənc bu pillədən uzaqlaşacaq, ali təhsil sistemi isə yalnız bakalavr səviyyəsində dayanmış, inkişaf etməyən struktur kimi qalacaq. Bu isə insan kapitalı üçün itirilmiş fürsət, təhsil üçünsə strateji fiaskodur. Təəssüf ki, hələlik Elm və Təhsil Nazirliyi bu istiqamətdə nə plan qurur, nə də mövcud vəziyyəti dəyişmək üçün ciddi iradə ortaya qoyur. Təhsil yalnız struktur deyil, həm də məzmun və nəticədir. Məzmun dəyişməyincə nəticə də dəyişməyəcək”.

***Ayşən Vəli***

# “Zəngəzur dəhlizi Azərbaycanın strateji maraqları çərçivəsində reallaşdırılacaq"




“Ermənistan–Azərbaycan münasibətləri 2020-ci il Vətən müharibəsindən sonra tamamilə yeni mərhələyə qədəm qoyub. Hazırda regionda yaranmış geosiyasi reallıqlar Azərbaycanın mövqeyinin nə qədər güclü olduğunu və proseslərə yön verən əsas tərəf kimi çıxış etdiyini göstərir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.

Onun sözlərinə görə, bu il iki ölkə arasında sülh sazişinin imzalanması tamamilə real görünür. Bunun başlıca şərti isə Ermənistanın revanşist ritorikadan tam imtina etməsi və Azərbaycanın suverenliyini şəksiz şəkildə tanımasıdır: ”Azərbaycan bu gün münaqişə sonrası mərhələdə sülhə ən çox maraqlı olan tərəfdir və bunu açıq şəkildə nümayiş etdirir. Bütün regional təşəbbüslərin müəllifi olan Azərbaycan öz şərtləri əsasında bölgədə sabitlik və inkişaf modelini formalaşdırır. Sülh prosesi Azərbaycanın daxili siyasi iradəsinə və regional üstünlüyünə əsaslanaraq davam etdirilir və heç bir xarici vasitəçi ölkənin maraqları üzərində təsir gücünə malik deyil. 2025-ci ilə qədər sülh sazişinin imzalanması ehtimalı kifayət qədər yüksəkdir, lakin bu yalnız Ermənistanın daxili siyasi iradə nümayiş etdirməsindən və konstruktiv mövqe tutmasından asılıdır. Əgər rəsmi İrəvan uzunmüddətli sabitlik istəyirsə, Azərbaycanın ərazi bütövlüyünü de-fakto və de-yure tanımalı, regional əməkdaşlığa real töhfə verməlidir. Əks halda, regiondakı yeni nizam Ermənistan üçün daha dərin təcrid və iqtisadi dalana çevriləcək.

ŞƏRH

Zəngəzur dəhlizinin açılması məsələsinə də toxunaraq qeyd etmək istəyirəm ki, bu layihə Azərbaycanın strateji maraqları çərçivəsində reallaşdırılacaq. Zəngəzur dəhlizi təkcə Naxçıvanla Azərbaycanın materik hissəsinin quru əlaqəsi deyil, eyni zamanda geniş türk dünyasını birləşdirən, regional və qlobal kommunikasiya xəritəsini dəyişdirən bir layihədir, Bu dəhlizin açılması həm Azərbaycanın suveren hüququdur, həm də regionda iqtisadi inteqrasiyanın mühüm dayağına çevriləcək. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır və artıq heç bir tərəfin xoşməramlılığından asılı deyil. Azərbaycan öz imkanları, siyasi iradəsi və iqtisadi gücü hesabına regionda yeni reallıqlar yaradıb və bu reallıqlara uyğun hərəkət etməyən ölkələr zamanla prosesin kənarında qalacaqlar.

2025-ci ildə sülh sazişinin imzalanması və Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün təkcə diplomatik uğur deyil, həm də regionun yeni inkişaf modelinə keçidi olacaq. Bu məqsədə çatmaq üçün Azərbaycan tərəfi kifayət qədər güclü və prinsipial mövqe nümayiş etdirir və prosesin gedişatını özü müəyyən edir”.

***Ziya Hikmətoğlu***

# Gənclər və İdman Nazirliyi: Ümummilli Liderin gənclərə böyük qayğısından yaranan qurum

***Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirib, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalıb. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan verib. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilib, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoyub. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənib, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: “Mən imkan daxilində hamıya, gənclərə isə, əlbəttə, maksimum dərəcədə idmanla məşğul olmağı məsləhət görürəm. Ona görə ki, bu, sağlamlıq üçün, ilk növbədə cəmiyyət üçün faydalıdır”.***

## Sağlam nəsil –güclü idman

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir.







Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Prezident cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyi münasibətilə keçirilən mərasimdə deyirdi: “Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir”.

Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Olimpiya və dünya çempionatlarında qazanılan medalların, nailiyyətlərin sayı ildən-ilə artır. İdmançılarımız 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında uğurla çıxış edərək 7 medal qazanıb və Azərbaycan dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutub.

Prezident İlham Əliyevin Sərəncamı ilə “İdman İli” elan edilən 2012-ci il də Azərbaycan idmançıları üçün uğurlu il olub. İdmançılarımız Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında daha yaxşı nəticə əldə edib. London Olimpiadasında idmanın 16 növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla bundan əvvəlki olimpiadalardakı rekordunu yeniləyib. 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan milli komandası medal sayına görə 14-cü yerdə qərarlaşdı. İdmançılarımız milli komandamızın aktivinə 18 medal yazdırdılar.

2021-ci ildə Tokioda XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan 44 idmançı ilə təmsil olunub və ölkəmizə 3 gümüş, 4 bürünc medal gətiriblər. Azərbaycan komandası medalların əyarına görə 67-ci, medalların sayına görə 33-cü pillədə qərarlaşıb.

Ötən il Fransada keçirilən XXXIII Yay Olimpiya Oyunları da ölkəmizə uğur gətirdi. Bu günədək 2 cüdoçumuzun qızıl medal qazanaraq Olimpiya çempionu olması Azərbaycanda idman sahəsinə göstərilən qayğının nəticəsidir. Dövlətimizin başçısının və birinci xanımın idmançılarımız Hidayət Heydərov və Zelim Kotsoyevə zəng vurmaları, təbrikləri, onlarla bağlı sosial şəbəkə hesablarında paylaşım etmələri ümumilikdə Azərbaycan gəncliyinə verilən dəyərdir.

Azərbaycan Milli Olimpiya Komandası Paris Olimpiadasını 7 medalla (2 qızıl, 2 gümüş və 3 bürünc) başa vurdu. Komandanın heyətində cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev final görüşündə qələbə qazanaraq Paris Olimpiadasının qalibi oldu. Taekvondoçu Qaşım Maqomedov həlledici görüşdə zədə səbəbi ilə məğlub olaraq olimpiadanın gümüş medalına sahib oldu, yunan-roma güləşçisi Həsrət Cəfərov isə Paris Olimpiadasını bürünc medalla başa vurdu.

Paris Olimpiadasında 7 medala sahib olan Azərbaycan Milli Olimpiya Komandası medalların əyarına görə 30-cu pillədə, medalların sayına görə isə 33-cü pillədə qərarlaşdı.

Bütün qələbələrin təməlində dövlət başçısının ötən dövr ərzində tez-tez federasiya rəhbərləri, idmançılarla görüşləri, tövsiyələri, onlara qayğı ilə yanaşması, zəhmətlərini dəyərləndirməsi dayanır. Həmçinin idman sahəsində əsl yüksəliş dövrünü yaşayan Azərbaycanda mükəmməl idman infrastrukturu da yaradılıb. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı və digər möhtəşəm idman obyektləri bunun göstəricisidir. Bütün bunlar ölkəmizi beynəlxalq yarışların, dünya çempionatlarının keçirilməsi üçün əlverişli məkana çevirib. Təsadüfi deyil ki, belə möhtəşəm idman qurğuları 2012-ci ildə futbol üzrə 17 yaşlı qızlar arasında dünya çempionatının, 2015-ci ildə birinci Avropa Oyunlarının, 2016-cı ildə futbol üzrə 17 yaşadək oğlanlar arasında Avropa çempionatının, 42-ci Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının və qadınlar arasında voleybol üzrə Avropa çempionatının, 2019-cu ildə bədii gimnastika üzrə dünya çempionatının, habelə Formula-1 Azərbaycan Qran-prilərinin, 2021-ci ildə futbol üzrə Avropa çempionatının müəyyən mərhələlərinin yüksək səviyyədə təşkil olunması ilə nəticələndi.

## İdmançılarımız yarışlarda qaldırdıqları Azərbaycan bayrağını Qarabağda da qaldırdılar

“İdman təkcə fiziki sağlamlıq deyil, bu, həm də özünəinamdır, iş qabiliyyətidir, mənəvi vəziyyətdir”,- deyən Prezident İlham Əliyevin bu dəyərli fikirlərinə istinadən demək olar ki, bəli, idman sağlamlıqla yanaşı, həm də özünəinamı, eyni zamanda qorxmazlığı, əyilməzliyi, igidliyi özündə ehtiva edir ki, bütün bunlar isə insanda vətənpərvərlik hissinin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə gənc nəsil bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olduğundan bu, son illər vətənpərvər gəncliyin də yetişməsində mühüm rol oynamışdır. Sağlam həyat tərzi, düzgün yaşam, cəmiyyət üçün gərəkli fərd olmaq insanda Vətəninə, torpağına, el-obasına sevgi, qədirbilənlik hissini formalaşdıran amillərdir. Bugünkü gəncliyin yüksək vətənpərvərlik keyfiyyətinə malik olmasında bu sahəyə göstərilən diqqət və qayğı öz sözünü deyib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində gənclərimizin dünyaya nümunə olan vətənpərvərliyi dövlətimizin vətəndaşına göstərdiyi qayğının bəhrəsi kimi təzahür etdi. Statistikaya görə Vətən müharibəsində idman sahəsi üzrə 500 nəfər iştirak edib. Onlardan 54 nəfəri şəhidlik zirvəsinə yüksəlib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə 390 nəfər könüllü kimi qatılıb. Hərbi xidmətə çağırılanlar 33, hərbçi kimi iştirak edənlər isə 23 nəfər olub. Müharibə iştirakçılarından 67 nəfər yaralanıb.

Gənclərimizin torpaqlarımızın işğaldan azad olunması uğrunda göstərdikləri şücaət, onların fiziki gücü, son nəfəslərinədək rəşadətlə döyüşməsi, torpaq, Vətən uğrunda şəhid olması göstərdi ki, bu xalqın övladlarının Vətən sevgisi bütün sevgilərdən, istəklərdən öndədir. Hər bir yarışda Azərbaycan bayrağını qürurla dalğalandırmağa nail olan idmançılarımız üçrəngli bayrağımızı Qarabağda da dalğalandırmağa nail oldular. Gənclərlə görüşündə Prezident İlham Əliyev onların Vətən müharibəsindəki şücaətindən söhbət açaraq demişdir: “Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən”.

Dövlətimizin başçısı onu da vurğulayır ki, bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər insanlardır. Eyni zamanda, bizim çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu, bir yeni davranış nümunəsidir.

Uşaqların, yeniyetmələrin, idmanla məşğul olmaq istəyənlərin də onlara oxşamasını vurğulayan ölkəmizin rəhbəri qeyd edir ki, onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa, öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə, son illər ərzində idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu, məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

Bəli, Olimpiya Hərəkatının uğurları ölkəmizə ötən 22 ildə yüksək səviyyədə rəhbərlik edən dövlət başçısının, eləcə də Olimpiya Hərəkatının rəhbərinin uğurları, yüksək idarəetmə təfəkkürü ilə gələcəyə hesablanmış siyasətin nəticəsi, nəyi nə vaxt etməyin əyani göstəricisidir. Elə Azərbaycanın bugünkü inkişafı da, 2020-ci ildə 30 illik mücadilənin sonu olaraq 44 gündə Qarabağın işğaldan azad olunması da, 2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüzün bərpası da, bu gün ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması da dövlətimizin başçısının nəyi nə vaxt edəcəyini düzgün müəyyənləşdirməsinin bariz göstəriciləridir.

***Mətanət Məmmədova***

# Ekosistemdə disbalans nələrə səbəb olacaq?

***Son illərdə ekosistemin balansının pozulması barədə olduqca çox danışılır, konfranslar təşkil edilir. Min illərdir normal tarazlıq və bəlli sistemi olan təbiət son illərdə anormal hadisələrə və təbii fəlakətlərə qucaq açıb. İnsanların təbiətə zərərli fəaliyyəti ekosistemi pozur. Bəzən deyirlər, insan təbiətə ən çox zərər verən canlıdır. Amma zənnimcə səhvdir. İnsan təbiətə zərər verən yeganə canlıdır.***



Qlobal istiləşmə, istixana effekti və iqlim dəyişikliyi kimi anlayışların həyatımıza daxil olmasına səbəb olan bu genişmiqyaslı iqlim dəyişikliyi yer üzündəki bütün canlılar üçün böyük risk yaradır. Bu genişmiqyaslı təhlükənin ən əhəmiyyətli səbəblərindən biri də istixana qazlarıdır. Ozon təbəqəsinin pozulmasından bəri illərdir mübarizə aparılan istixana effekti qlobal istiləşmənin əsas mənbəyidir.

İstixana effektinin niyə qlobal istiləşməyə səbəb olduğunu anlamaq bu dünyada yaşayan hamı üçün son dərəcə vacibdir. Çünki bu zəhərli qazların atmosfetə buraxılmasını tez bir zamanda dayandırmasaq sonumuz yaxın olacaq. İstixana effekti və qlobal istiləşmə bir-biri ilə birbaşa əlaqəlidir. Yer kürəsini günəşin zərərli şüalarından



qoruyan ozon təbəqəsinin nazilməsi və deşilməsi nəticəsində yer üzü zərərli günəş şüalarına intensiv şəkildə məruz qalır. Bu zərərli şüalar istixana effekti ilə birləşdikdə dünya daha çox isinməyə başlayır. Bu cümlələri oxuduqda fərqinə vardınız, son illərin qızmar havalarında insan "əməyi" nə qədər çoxmuş, deyilmi? İstixana effekti bütün havaya təsir edərək, istilik və radiasiyanın yer üzündə daha uzun müddət qalmasına səbəb olur. Kükürd və azot kimi zəhərli qazlar havaya buraxılır və istiliyi kondensasiya edərək yerin istiləşməsinə səbəb olur.



Yer səthinin orta temperaturu +15 ° təşkil edir, parnik effekti olmasa idi bu nisbət - 18° olardı. Odur ki, parnik-istixana effektinin tarazlığı Yerdə həyatın mövcudluğu üçün əsas mexanizmlərdən biri sayılır. Parnik effekti yaratmaqda atmosferdə olan su buxarı aparıcı rol oynayır. Bu baxımdan, atmosferdə yüksək konsentrasiyada olan qazlar da böyük əhəmiyyətə malikdir. Əsas parnik qazları karbon 2 - oksid ($CO_2$), azot oksidləri, xüsusilə $NO_2$ metan ($CH_4$) və troposfer ozonudur ($O_3$). Son bir neçə yüzillikdə bu təbii qazların miqdarı artıb. Atmosferə əlavə olaraq qlobal ekosistemin təbii komponenti olmayan digər qazlar da daxil olur. Onlardan ən əsasları insan tərəfindən sintez edilən xlor - flüor üzvi birləşmələri, freonlar da bu kateqoriyaya aiddir.

ARAŞDIRMA

### İnsan təbiəti qorumasa

Son 200 ildə, xüsusilə 1950 - ci ildən sonra, hazırda da davam edən insan "fəaliyyəti" atmosferdə parnik effektli qazların konsentrasiyasının artmasına səbəb olur. İqlimin istiləşməsi atmosferdə parnik qazlarının miqdarını artıraraq parnik effektinin yüksəlməsinə səbəb olacaq. Karbon qazının hazırda parnik effektində payı 64%-ə çatır. Bu miqdar ilbəil artmaqda davam edir. Atmosferdə onun konsentrasiyasını aşağı salmaq üçün tullantıları azaltmaq vacibdir.

Metan bataqlıq qazı parnik effektində 19 % təşkil edir. Son 10 illərdə atmosferdə metanın miqdarının artması müşahidə olunur. Onun konsentrasiyasının çoxalması mənbələri sənaye tərəfindən bataqlıqların qurudulması və meliorasiya, çəltik tarlalarının sahəsinin genişləndirilməsi, maldarlığın artması və s. hesab olunur. Metanın $SO_2$ - dən olduqca az olmasına baxmayaraq infraqırmızı şüaların udulmasında yüksək effektli uducu sayılır. Əhalinin sayının artması ilə atmosferdə metanın çoxalması müşahidə olunur.

Azot oksidləri ümumi parnik effektinin 6%-ni təşkil edir. Kənd təsərrüfatında azot gübrələrinin tətbiqinin artması və üzvü yanacaqlardan kütləvi istifadə edilməsi zamanı $NO_2$-nin miqdarı artır. Xlor- flüor üzvi karbonlar isə tərkibində xlor, flor və brom olan maddələrdir. Bunlar yüksək effektli potensiala malik olub atmosferdə uzun müddət qalır. Onun miqdarı 7% -ə çatır. Ozon, mühüm parnik qazı hesab olunur. O, həm stratosferdə, həm də troposferdə yerləşən qısadalğalı və uzundalğalı radiasiyaya təsir göstərir.

### 7 milyon insan havadan zəhərlənir

Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, hər il dünyada 7 milyondan çox insan çirklənmiş hava səbəbindən erkən ölür. Bildirilir ki, qapalı və açıq məkanlarda yaranan çirkli hava insanlarda müxtəlif xəstəliklərə səbəb olaraq ömrünü qısaldır. TSKB İqtisadi Araşdırmalar Mərkəzinin hazırladığı "Həyat dərindən bir nəfəsdir" başlıqlı hesabatda dünya üzrə 300 milyon uşağın maksimum səviyyədən 6 dəfə çox hava çirkliliyinə məruz qaldığını deyir. Havadakı qaz, his, ozon və metan nisbətindəki dəyişikliklər, sadəcə, iqlim dəyişikliyinə səbəb olmur, eyni zamanda, hər il milyonların ölümünə rəvac verir.

Açıq mühitdəki çirkli hava hər il 3.7 milyon, evlərdə və ya ofislərdəki çirkli hava isə hər il 4.3 milyon insanı erkən öldürür. Araşdırmalara görə dünyada ekologiyanın çirklənməsinə 42 faiz insanlar, 30 faiz sənaye tullantıları, 14 faiz nəqliyyat vasitələri və 14 faiz isə digər səbəblər yol açır. ÜST hesab edir ki, ekologiyanın çirklənməsinin qarşısı alındığı təqdirdə 2050-ci ilə qədər hər il 3-5 milyon insanın erkən ölümünün qarşısı alına bilər.

İstixana qazlarının konsentrasiyası buzlaqların əriməsinə və okeanların səviyyəsinin qalxmasına səbəb olur, beləcə su artdıqca torpaq sahələri azalır. Bəzi bölgələrdə daşqın və qasırğa kimi fəlakət riski artır, bəzi yerlərdə isə əksinə, şiddətli quraqlıq müşahidə olunur. Qış mövsümündə temperatur yüksəlir, havalar erkən isinir, yaz tez gəlir, payız isə gecikir. Heyvanların miqrasiya dövrləri dəyişir və bir çox canlı növü yox olmağa başlayır. Qlobal istiləşmə sürətlənir. Tərkibindəki zəhərli qazlar və havanın temperaturu ilə insan sağlamlığına mənfi təsir göstərir, ürək xəstəliklərindən tutmuş tənəffüs xəstəliklərinə qədər bir çox zərərlərə səbəb olur. Hava yolu ilə yoluxucu allergiya xəstəlikləri artır.

### Əhali artır, bəs təminat?

Dünya miqyasında mövcud problemlərdən ən böyüyü ətraf mühitin davamlı üzvi çirkləndiricilər və ağır metallarla çirklənməsinin minimuma endirilməsidir ki, bu ölkəmiz üçün də olduqca aktual və həlli vacib problemlərdəndir. Bu növ çirklənmənin əsas mənbələri neft emalı, neft-kimya, kimya, energetika, tikinti materialları istehsalı, avtonəqliyyat, kənd təsərrüfatında pestisidlərin tətbiqi və tullantıların yandırılması kimi proseslərdir ki, bu mənbələrdən ətraf mühitə dioksinlər, furanlar, bifenil və ağır metallar atılır. Xüsusilə istixana qazların təhlükəsi barədə ölkəmiz olduqca məlumatlıdır və bu təhlükənin azaldılması istiqamətində işlər görülür.

Dünyanın sürətlə artan əhalisinin və inkişaf etməkdə olan sənayenin enerji tələbatını məhdud resurslarla ödəmək mümkün deyil. Enerji istehsalı ilə istehlak arasında fərq getdikcə artır. Qlobal enerji istehlakının 2035-ci ilə qədər 1998-ci ildə istehlak edilən enerjidən iki dəfə, 2055-ci ildə isə üç dəfə çox olacağı təxmin edilir. Digər tərəfdən, neft, təbii qaz, kömür və nüvə enerjisi kimi "bərpa olunmayan" ənənəvi enerji mənbələri ətraf mühiti və insan sağlamlığını getdikcə daha çox hədələyir. Ənənəvi enerji mənbələrindən, nəqliyyat, yaşayış və sənaye sektorlarında geniş istifadə problemi daha da mürəkkəbləşdirir.

Dünyada meşələrin sayının azalması qalıq yanacaqların yandırılması nəticəsində ayrılan karbon qazının ($CO_2$) miqdarının artması ilə nəticələnir. Bu qaz, atmosferdəki qazlarla birlikdə günəş işığının yer üzündə əks olunmasının qarşısını alır. Bu formada da yenə "istixana effekti" yaranır və iqlim dəyişikliyinə səbəb olur. Qlobal istiləşmənin bu tempdə artmağa davam edəcəyi təqdirdə 2040-cı ilə qədər dəniz səviyyəsinin bir metrə qədər yüksələcəyi və bu halda dünyanın ən böyük şəhərlərinin su altında qalacağı ehtimal edilir.

***Lalə Mehralı***



# Ermənistanın son durumu

## *Paşinyan-kilsə savaşı, parlament seçkiləri və Rusiya gündəliyi*







“İrəvan Rusiya ilə qarşılıqlı hörmətə əsaslanan normal və dostluq münasibətlərinə can atır”. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya telekanallarının yayımının dayandırılmasının mümkünlüyü ilə bağlı sualı cavablandırarkən deyib. “Biz Rusiya ilə normal, qarşılıqlı hörmətə əsaslanan dostluq münasibətlərinin olmasını istəyirik”, - Paşinyanın sözlərinə görə, o, şəxsən Rusiya prezidenti Vladimir Putin və baş nazir Mixail Mişustinlə hörmətli münasibətlər qurub. Paşinyan qeyd edib ki, guya Rusiyada Ermənistanı Rusiya telekanallarının yayımını dayandırmaq barədə qərar qəbul etməyə məcbur etmək istəyən qüvvələr var. Baş nazir əlavə edib ki, belə bir qərar qəbul olunarsa, o, bunu qəbul etməli olacaq, lakin o, bunun əleyhinədir. Paşinyan vətəndaşlar üçün mənfi nəticələrə görə belə tədbirlərdən qaçmağa üstünlük verəcəyini vurğulayıb. Bundan əvvəl Ermənistan Milli Assambleyasının sədri Alen Simonyan respublikada Rusiya telekanallarının yayımının dayandırılması təşəbbüsü ilə çıxış edərək, aparıcı KİV-ləri Ermənistanla Rusiya arasında münasibətlərə dağıdıcı təsir göstərən şəxslər kimi qələmə verib. Buna cavab olaraq Rusiya Federasiyasının Dövlət Duması İrəvanın Ukrayna siyasətinə oxşar kurs seçdiyini bəyan edib.

### Paşinyanın Moskvadan Zəngəzur qorxusu

Zəngəzur dəhlizinin taleyinin həll olunduğu və onun indi “Tramp körpüsü” adlandırılacağı və 99 il müddətinə ABŞ-a icarəyə veriləcəyi xəbəri Ermənistan hökumətinin İnformasiya Departamenti tərəfindən təkzib edilib. Lakin İrəvanın özündə hamı dəhşətdən donub qaldı. Bir neçə aydır ki, burada “dəhliz” və özəl Amerika şirkəti ilə bağlı söhbətlər gedir. Bu gün İspaniyanın “Perio Degital” qəzeti yazı dərc edib ki, guya Paşinyan, Tramp və Əliyev Azərbaycan və onun eksklavı olan Naxçıvan Muxtar Respublikası (MR) arasında Ermənistan ərazisindən keçən nəqliyyat dəhlizinin yaradılmasına dair memorandum üzərində artıq razılaşıblar. Və Naxçıvan MR Türkiyə ilə həmsərhəd olduğundan dəhliz faktiki olaraq Bakı ilə İstanbulu birləşdirəcək.

Nəşr iddia edir ki, əməkdaşları bu sənədi görüblər və orada 42 kilometr uzunluğunda olan Zəngəzur dəhlizi “Tramp körpüsü” adlanır və özəl Amerika şirkəti tərəfindən idarə olunacaq. Bu ssenaridə mənfəətin əsas payı - həm maliyyə (dəhlizin istismarından), həm də geosiyasi (İran sərhədinə nəzarət) ABŞ-a, daha sonra isə Türkiyə və Azərbaycana düşəcək. Amma faktiki olaraq ərazisinin bir hissəsindən imtina edəcək və suverenliyini itirəcək Ermənistana yox. Fransa da inciyə bilər, baxmayaraq ki, Makron çox canfəşanlıqla İrəvanla Bakı arasında danışıqlarda iştirak edirdi, açıq-aydın dadlı loxmalara ümid edirdi.

Bu günə qədər mövcud olmayan Zənguzur dəhlizi ilə bağlı müzakirələr artıq bir neçə ildir ki, davam edir. Qarabağın və Şərqi Zəngəzurun Azərbaycan tərəfindən azad edilməsindən sonra bu məsələ xüsusilə intensivləşib. Lakin hələlik nə Paşinyan özü, nə də başqaları rəsmi olaraq heç nə açıqlamayıb. Baxmayaraq ki, Ermənistanın baş nazirinin Azərbaycan və Türkiyə prezidentləri ilə görüşlərinin davam etdiyi heç kimə sirr deyil. Danışıqların mövzusu sülh müqaviləsinin imzalanmasıdır. Bu sənədin layihəsində nələrin olduğu hələ də ermənilər üçün sirr olaraq qalır. Amma bu danışıqların gündəmində Zəngəzur dəhlizinin taleyinin də olduğunu anlamamaq üçün siyasətdən uzaq olmaq lazımdır. “İspaniyanın “Perio Degital” dərgisində yazılanların doğru olub-olmadığını bilmirəm”, – erməni politoloq və radio aparıcısı Arman Abovyan məyusluğunu gizlətməyib: ”Hökumətimizdən heç bir təsdiq və ya təkzib eşitməmişəm. Amma onlar hazırda Erməni Apostol Kilsəsinə hücumla çox məşğuldurlar. Amma son həftələrdə Əliyevlə Tramp arasında gedən danışıqları nəzərə alsaq, Zəngəzur dəhlizinin açılması artıq reallığa çevrilməkdədir. Moskva ilə Bakı arasında münasibətlərin gərginləşməsi də eyni zəncirdə bir halqadır.

Abovyan qeyd edib ki, Paşinyan Türkiyə və Azərbaycanın mənafeyinə xidmət edir: “Üstəlik, bütün bunlar Ermənistana bir xeyir kimi təqdim olunur. Amma sanki xəstə başı ağrıyaraq həkimə gəlir, həkim başını kəsir və deyir, vəssalam, hər şey düzəldi. Paşinyanın siyasəti, Ermənistanın ərazisini təslim etməmək üçün yeganə maneənin rusları və iranlıları qəzəbləndirmək qorxusuna bənzəyir. Ermənistanda kilsə detektivinin elementləri və həbsxana dramından ibarət yüksək profilli siyasi serial çəkilir. Ölkənin əsas düşmənləri, Ermənistanın baş naziri Paşinyana görə, indi təkcə müxalifət deyil, həm də keşişlərdir! İki arxiyepiskop artıq cübbələrini həbsxana paltarları ilə dəyişiblər. Eyni zamanda onların müdafiəsinə qalxmağa cəsarət edən hər kəsi - iş adamlarını, deputatları həbs edirlər. İnsanlar bütün ermənilərin katolikosunun - Patriarxın başına qandal vurula biləcəyindən ciddi şəkildə narahatdırlar”.



Ermənilər əslində çox dindardırlar. Nadir hallarda kimsə kilsənin və ya müqəddəs xaçkarın (daş xaç) yanından keçərkən görməzdən gəlir. Onlar üçün Kilsə sadəcə “şam yandıracaq” deyil, xalqın hər hansı hakimiyyətdən daha çox güvəndiyi yerdir. Məcazi mənada yox, hərfi mənada. Rəy sorğularından real rəqəmlər var. Bunu hətta Sovet hökuməti də başa düşürdü - Ermənistanın əsas dini mərkəzi olan Eçmiədzin heç vaxt bağlanmamışdı. Əslində isə Eçmiədzin SSRİ (oxu Rusiya) KQB-sinin agentura şəbəkəsinə aid idi İndi isə İrəvanda qışqırırlar ki, arxiyepiskoplar düşməndir, terrorçudur. Onları düz Eçmiədzinin özündə tutub dəmir barmaqlıqlar arxasına atırlar.

Keşişlərə qarşı irəli sürülən ittihamlar isə əslində çox ciddidir: dövlətə xəyanət, terror aktları və qətllər hazırlamaq və s. və s. Həm də onlar Rusiya ilə əlaqələrdə ittiham olunurlar. Ermənistanın qərbyönlü baş naziri Nikol Paşinyan artıq özünü az qala məsih elan edib: “Mən kilsənin Dəccaldan azad edilməsinə rəhbərlik edəcəyəm”. O, qətiyyən sözünü kəsmir. O, açıq-aşkar Patriarxı itttiham edir, onu katolik inanclarına xəyanətdə suçlayır. Bəli, Nikolun sözlərinə görə, Patriarx siyasi həbsləri pisləməkdə və dövlət çevrilişinə cəhdi dəstəkləməkdə günahkardır. Hakimiyyət uğrunda mübarizə müqəddəs müharibə mərhələsinə qədəm qoyub.

Arxiyepiskop Baqrat Qalstanyan 2024-cü ilin yayında ölkənin baş meydanında dayanaraq Paşinyanın siyasətini xain hesab edərək istefasını tələb edib. Həmin kütləvi etirazlar hakimiyyətin dörd sərhəd kəndinin Azərbaycana verilməsinə razılıq verməsindən sonra başlayıb. Paşinyan onsuz da kəndlərdən imtina edib və bu, arxiyepiskopun müxalifət liderlərindən biri kimi mövqeyini daha da gücləndirib. İndi də hakimiyyət iddia edir ki, Baqrat il boyu boş durmayıb, “qanlı qurbanlarla” şiddətli dövlət çevrilişi hazırlayır, küçələri bağlayır, interneti kəsir və sair şeytani işlərlə məşğuldur. Bunun üçün o, hətta keçmiş hərbi və təhlükəsizlik məmurları da daxil olmaqla 1000 nəfəri işə götürüb.

Şirak yeparxiyasının rəhbəri, arxiyepiskop Mikael Ajapahyan isə xüsusi təyinatlıların Eçmiədzində katolikosun iqamətgahına basqın etməsindən sonra saxlanılıb. O, “hökumətin zorakılıqla devrilməsinə çağırış”da ittiham olunur. Nə üçün? Ona görə ki, ilyarım əvvəl verdiyi müsahibədə ölkədə hərbçilərin hakimiyyəti devirməsi ehtimalını müzakirə edib. Bu isə kahinin dəmir barmaqlıqlar arxasına atılmasına kifayət edib.

### Biznesmen - patron

Ölkənin enerji şəbəkələrinin sahibi, hələ işğal dövründə Qarabağda və Ermənistanda çoxsaylı klinikalar, universitetlər tikdirən, Qarabağ separatçılarını evlə təmin edən iri rus-erməni iş adamı Samvel Karapetyan da tənqid atəşinə tutulub. Yalnız Kilsə, ”siyasətçilər uğursuz olarsa, biz Kilsəyə qarşı bu kampaniyaya öz yolumuzla müdaxilə edəcəyik” deyən birisi üçün ayağa qalxıb. Üstəlik, o, bunu hələ Baqrat və Mikael həbs olunmamışdan əvvəl deyib. Lakin Paşinyan dərhal sosial şəbəkələrdəki paylaşımı ilə – bəyəndiyi kimi – cavab verib və biznesmeni “əxlaqsız xeyriyyəçi” adlandırıb. Bütün Ermənistanı heyrətə gətirən axşam təhlükəsizlik qüvvələri Karapetyanın evinə qandalla gəlib. Hakimiyyət dərhal Karapetyanın biznesinin milliləşdirilməsinin mümkünlüyü haqqında qanun qəbul edib. Artıq ofislərdə axtarışlar və həbslər aparılıb.

Hakimiyyət Ermənistan partiyasının müxalif deputatlarını da saf-çürük etməyə başlayıb - onları toxunulmazlıqdan məhrum edir, cinayət işi açır. Onlardan biri Artur Sarkisyan yenidən dövlətə xəyanətdə və arxiyepiskopla əlaqədə olduğu üçün artıq həbs edilib. Görünən odur ki, Ermənistanda təkcə siyasət deyil, hər şey qarışıq görünür. Ermənistan hakimiyyəti elektrik şəbəkələrini bitirib, dəmir yollarını götürəcəklər. Erməni siyasətçi, keçmiş deputat Ani Samsonyan əmindir ki, bəhanə eyni olacaq, Rusiya ilə əlaqələr. Paşinyanın məqsədi bütün müqavimət nöqtələrini aradan qaldırmaqdır: rus köklü biznesləri, kilsəni. Qərbin məqsədi bütün vasitələrlə Rusiyanın təsirini sıxışdırmaqdır. Hakimiyyət isə birdən-birə Qərbin Ermənistan dövlətinin özünü məhv etmək üçün çoxdankı planı olduğunu dilə gətirməyi dayandırıb. Erməni siyasətçilər, əsasən də Nikolun getməsini istəyənlər, Paşinyanın bir məqsədi olduğunu düşünürlər - hakimiyyətdə qalmaq. Kim ona – Rusiyaya, Türkiyəyə – buna zəmanət versə, “işləyəcək”. Hamısı budur. Hətta ölkənin tərəfdaşları belə onun siyasətini başa düşmürlər. Hakimiyyət Ermənistanın Qarabağı itirməsində Rusiyanın günahkar olduğu fikrini qızışdırır. Gümrüdəki Rusiya hərbi bazasının çıxarılmasından danışmağa başlayıblar. Qərb yalnız bunu gözləyir. Amma deyin, Rusiyada onlar nə düşünürlər? Ermənistan sizə lazımdır, ya yox?

### 2026-cı il seçkilərində hansı ssenarilər olacaq?

Paşinyanın reytinqi əvvəlki kimi deyil. Kilsəyə edilən hücumlardan sonra onun daha çox artacağı, yoxsa azalacağını söyləmək asan deyil. Dörd variant var: Birinci, Paşinyan təzyiq edəcək ki, ona alternativ Azərbaycanla müharibədir. Və bunu artıq heç kim istəmir. İkincisi, sərhəddə atəş açmaq, fövqəladə vəziyyət elan etmək və seçkiləri təxirə salmaq. Üçüncüsü, Hitlerin öz dövründə etdiyi kimi rəqabətsiz qalmaq üçün hamını həbs edəcək və hər şeyi qadağan edəcək. Dördüncüsü, tam seçki saxtakarlığı.

Bütün bu ssenarilər reallıqdan da artıqdır. Ermənistanda artıq seçki yarışı başlayıb. Aİ isə artıq ona qoşulub, Avropa diplomatiyasının rəhbəri Kaja Kallas Ermənistana “müstəqil media və dezinformasiya və hibrid təhdidlərlə mübarizə” üçün 270 milyon avro ayrılacağını açıqlayıb. Ermənistanda hər kəs onun hansı təhdidlərlə mübarizə aparacağını anlayır. “İndi kilsə ilə baş verənlər təkcə rəqiblərin aradan qaldırılması deyil. Bu, ermənilərin kimliyinin məhv edilməsidir”, - politoloq və jurnalist Arman Abovyan deyir ki, deputatların və iş adamlarının həbsləri açıq-aydın seçki öncəsi meydanın təmizlənməsidir, o insanların ən qaniçən hissəsinin, qəribə də olsa, hələ də Paşinyanı dəstəkləyən hissəsinin paralel qane olmasıdır. Onların sayı az deyil. Paşinyanın parlament sədri birbaşa bəyan edib ki, “polad mandat”ın vaxtı çatıb.

**V.VƏLİYEV**

*Seriyamızın bundan əvvəlki hissələrində insanın necə yaranması haqda maraqlı faktları təqdim etmişik. Ondan əvvəlki hissələrdə isə, bitkilərin, heyvanların, ümumiyyətlə həyatın necə yarandığı haqda elmi və dini dəlilləri vermişdik. Bu yazıda isə, həyatın mənbəyi haqda cəfəngiyyatın (təkamül nəzəriyyəsi) elm tərəfindən necə təkzib edildiyinə toxunacağıq.*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

(XXXII YAZI)

## Həyatın mənşəyi haqqında elm nə deyir?- MARAQLI FAKTLAR

Təkamül nəzəriyyəsi tarixi qədim Yunanıstana gedib çıxan bir doktrina olsa da, 19-cu əsrdə hərtərəfli şəkildə irəli sürülüb. Nəzəriyyəni elm aləmində ön plana çıxaran ən əhəmiyyətli inkişaf Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin Mənşəyi" haqqında kitabı oldu. Darvin bu kitabda Yaradanın yer üzündə fərqli canlı növlərini ayrı-ayrılıqda yaratdığını inkar etdi. Darvinə görə, bütün növlər ortaq bir əcdaddan törəmiş və zamanla kiçik dəyişikliklərlə fərqlənmişlər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmamışdı; özünün də etiraf etdiyi kimi, bu, sadəcə olaraq, "əsaslandırma" idi. Həqiqətən də, Darvinin "Nəzəriyyə ilə bağlı çətinliklər" adlı kitabında uzun bir fəsildə etiraf etdiyi kimi, nəzəriyyə bir çox vacib suallara qarşı həssas idi.

Darvin, nəzəriyyəsinin qarşısında duran çətinliklərin elmi inkişaf etdirməklə aradan qaldırılacağına və yeni elmi tapıntıların onun nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. O, bunu kitabında tez-tez qeyd edirdi. Ancaq Darvinin ümidlərinin əksinə olaraq inkişaf edən elm nəzəriyyənin əsas iddialarını bir-bir əsassız etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti 3 əsas başlıq altında araşdırıla bilər:

1) Nəzəriyyə həyatın ilk dəfə Yerdə necə meydana gəldiyini izah edə bilməz.

2) Nəzəriyyənin irəli sürdüyü "təkamül mexanizmlərinin" əslində təkamül təsiri olduğunu göstərən heç bir elmi dəlil yoxdur.

3) Fosil qeydləri təkamül nəzəriyyəsinin proqnozlarına tamamilə zidd bir mənzərə təqdim edir.

Təkamül nəzəriyyəsi iddia edir ki, bütün canlı növləri təqribən 3,8 milyard il əvvəl ibtidai Yer kürəsində yaranmış tək canlı hüceyrədən törəyiblər. Tək bir hüceyrənin milyonlarla kompleks canlı növünü necə meydana gətirə biləcəyi və əgər belə bir təkamül həqiqətən baş vermişsə, niyə fosil qeydlərində onun izlərinə rast gəlinmədiyi nəzəriyyənin açıqlaya bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk addımına diqqət yetirmək lazımdır. Həmin o "ilk" hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və hər hansı fövqəltəbii müdaxiləni rədd etdiyi üçün "ilk hüceyrə"nin təbiət qanunları daxilində, heç bir dizayn, plan və nizam olmadan təsadüfən meydana gəldiyini iddia edir. Başqa sözlə, nəzəriyyəyə görə, cansız maddə təsadüfən canlı hüceyrəni əmələ gətirmiş olmalıdır. Ancaq bu, biologiyanın ən təməl qanunlarına zidd olan bir iddiadır.

Darvin kitabında həyatın mənşəyindən heç vaxt bəhs etməmişdir. Çünki onun dövrünün ibtidai elmi anlayışı canlıların çox sadə bir quruluşa malik olduğunu fərz edirdi. Orta əsrlərdən bəri inanılan "spontan nəsil" nəzəriyyəsinə görə, cansız maddələrin təsadüfən bir araya gələrək canlı əmələ gətirə biləcəyinə inanılırdı. Bu dövrdə həşəratların yemək qalıqlarından, siçanların isə buğdadan çıxdığına inanılırdı. Bunu sübut etmək üçün maraqlı təcrübələr aparılıb. Çirkli bir cır-cındırın üstünə bir az buğda qoyulmuşdu və bir müddət gözlədikdən sonra bu qarışıqdan siçanlar çıxacaqdı. Ətdə qurdların olması da həyatın cansız maddələrdən yarana biləcəyinin sübutu hesab olunurdu. Ancaq sonradan başa düşüləcək ki, ətin üzərindəki qurdlar özbaşına yaranmayıb, milçəklərin gətirdiyi və buraxdığı görünməz sürfələrdən əmələ gəlib.



Darvin "Növlərin mənşəyi haqqında" əsərini yazdığı dövrdə bakteriyaların cansız maddələrdən əmələ gələ biləcəyi inancı elm aləmində geniş şəkildə qəbul edilmişdi.

Ancaq Darvinin kitabının nəşrindən 5 il sonra məşhur fransız bioloqu Lui Paster təkamülün əsasını qoyan bu inancı qəti şəkildə təkzib etdi. Paster geniş araşdırma və təcrübələrdən sonra gəldiyi nəticəni belə yekunlaşdırdı:

"Cansız maddələrin həyat yarada biləcəyi iddiası artıq qəti şəkildə tarixin arxivinə təhvil verilmişdir". (Sidney Fox, Klaus Dose, "Molecular Evolution and The Origin of Life", New York: Marcel Dekker, 1977, s. 2)



Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pasterin tapıntılarına uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrənin mürəkkəb quruluşunu ortaya çıxardıqca, həyatın öz-özünə yarana biləcəyi iddiasının əsassızlığı daha da aydınlaşdı.

20-ci əsrdə həyatın mənşəyinə toxunan ilk təkamülçü tanınmış rus bioloqu Alexander Oparin olmuşdur. Oparin 1930-cu illərdə irəli sürdüyü bir sıra tezislərlə canlı hüceyrənin təsadüfən yarana biləcəyini sübut etməyə çalışdı. Ancaq bu cəhdlər uğursuz oldu və Oparin aşağıdakı etirafı etmək məcburiyyətində qaldı:

Təəssüf ki, hüceyrənin mənşəyi bütün təkamül nəzəriyyəsini əhatə edən ən qaranlıq nöqtəni təşkil edir. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953, s. 196)

Oparinin rəhbərliyi ilə təkamülçülər həyatın mənşəyini həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrdən ən məşhuru 1953-cü ildə Amerika kimyaçısı Stanley Miller tərəfindən aparılmışdır. Miller ilkin Yer atmosferində mövcud olduğunu iddia etdiyi qazları eksperimental quruluşda birləşdirərək və qarışığa enerji əlavə edərək, zülalların quruluşunda istifadə edilən bir neçə üzvi molekulu (amin turşularını) sintez etdi.

O dövrdə təkamüldə əhəmiyyətli bir addım kimi təqdim edilən bu təcrübənin daha sonra etibarsız olduğu və təcrübədə istifadə edilən atmosferin real dünya şəraitindən çox fərqli olduğu ortaya çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorology Society, cild 63, noyabr 1982, səh. 1328-1330).

Uzun bir sükutdan sonra Miller özü istifadə etdiyi atmosfer mühitinin qeyri-real olduğunu etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Cari Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7)

Həyatın mənşəyini izah etmək üçün 20-ci əsrdə bütün təkamülçü cəhdlər ardıcıl olaraq uğursuzluqla nəticələnmişdir. San Dieqodakı Scripps İnstitutundan tanınmış geokimyaçı Ceffri Bada 1998-ci ildə təkamülçü Earth jurnalında dərc olunan məqaləsində bu həqiqəti etiraf etmişdir:

"Bu gün, 20-ci əsri geridə qoyarkən, hələ də 20-ci əsrə qədəm qoyarkən qarşılaşdığımız ən böyük həll edilməmiş problemlə qarşılaşırıq: Yer kürəsində həyat necə başladı?" (Jeffrey Bada, Earth, fevral 1998, səh. 40)

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi ilə bağlı bu qədər böyük çıxılmaz vəziyyətə düşməsinin əsas səbəbi ən sadə canlı orqanizmlərin belə inanılmaz dərəcədə mürəkkəb quruluşa sahib olmasıdır. Canlı hüceyrə bəşəriyyətin yaratdığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. İş o yerə çatıb ki, dünyanın ən qabaqcıl laboratoriyaları belə cansız materialları birləşdirərək canlı hüceyrə əmələ gətirə bilmir.

Hüceyrənin əmələ gəlməsi üçün lazım olan şərtlər təsadüfən izah edilə bilməyəcək qədər mürəkkəbdir. Hüceyrənin ən əsas tikinti materialı olan zülalların təsadüfən sintez olunma ehtimalı orta hesabla 500 amin turşusu olan zülal üçün 10 üstü 950-də 1-dir. Lakin riyaziyyatda 10 üstü 50-də 1-dən az olan ehtimallar praktiki olaraq "qeyri-mümkün" hesab olunur. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu inanılmaz bir məlumat bankıdır. Təxmin edilir ki, insan DNT-sindəki məlumat kağız üzərində saxlanılsa, hər biri 500 səhifədən ibarət 900 cildlik bir kitabxana təşkil edəcək.

Bu zaman çox maraqlı başqa bir dilemma yaranır: DNT ancaq müəyyən ixtisaslaşmış zülalların (fermentlərin) köməyi ilə çoxala bilər. Lakin bu fermentlərin sintezi yalnız DNT-dəki məlumatlara uyğun olaraq baş verir. Bir-birindən asılı olduqları üçün replikasiyanın baş verməsi üçün hər ikisi eyni vaxtda mövcud olmalıdır. Bu, kortəbii nəsil ssenarisini çıxılmaz vəziyyətə salır.



San Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü Prof. Lesli Orgel Scientific American jurnalının 1994-cü il oktyabr sayında bunu belə etiraf etmişdir:

"Son dərəcə mürəkkəb quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni anda təsadüfən əmələ gəlməsi ehtimalı çox azdır. Bununla belə, birini digəri olmadan əldə etmək də mümkün deyil. Buna görə də insan həyatın heç vaxt kimyəvi üsullarla meydana çıxa bilməyəcəyi qənaətinə gəlmək məcburiyyətində qalır". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, həyatın təbii agentlər tərəfindən meydana gəlməsi mümkün deyilsə, o zaman həyatın fövqəltəbii şəkildə "yaradıldığını" qəbul etmək lazımdır. Bu həqiqət, əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

Darvinin nəzəriyyəsini əsassız edən 2-ci əsas məqam isə nəzəriyyənin "təkamül mexanizmləri" olaraq irəli sürdüyü hər iki anlayışın əslində heç bir təkamül gücünə malik olmadığının anlaşılmasıdır. Darvin təkamül iddiasını tamamilə "təbii seçmə" mexanizminə əsaslandırdı. Onun bu mexanizmə verdiyi əhəmiyyət kitabının adında açıq şəkildə görünür: "Təbii seçmə yolu ilə növlərin mənşəyi".

"Təbii seçmə" təbii seçmə terminidir. Təbiətdə yaşamaq uğrunda mübarizədə yalnız təbii şəraitə uyğun və güclü canlıların sağ qalacağı fikrinə əsaslanır. Məsələn, yırtıcıların təhdid etdiyi maral sürüsündə daha sürətli qaça bilən maral sağ qalacaq. Beləliklə, maral sürüsü sürətli və güclü fərdlərdən ibarət olacaq. Amma təbii ki, bu mexanizm maralların təkamül etməsinə və ya onları at kimi başqa bir növə çevirməsinə səbəb olmur.

Ona görə də təbii seçmə mexanizminin təkamül gücü yoxdur. Darvin də bu həqiqətdən xəbərdar idi və "Növlərin mənşəyi haqqında" kitabında bunu etiraf etməyə məcbur olmuşdu: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seleksiya heç bir şey edə bilməz". (Charles Darwin, The Origin of Species: A Faxsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189).

Bəs bu "faydalı dəyişikliklər" necə baş verə bilərdi? Darvin, dövrünün ibtidai elmi anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdır. Darvindən əvvəl yaşamış fransız bioloqu Lamarka görə canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürür və bu xüsusiyyətlərin nəsildən-nəslə yığılması nəticəsində yeni növlər meydana çıxır. Məsələn, Lamarka görə, zürafələr ceyranlardan əmələ gəlib və hündür ağacların yarpaqlarını yemək üçün mübarizə apardıqca boyunları nəsillər boyu uzanıb. Darvin də buna bənzər nümunələr verdi. Məsələn, "Növlərin Mənşəyi" adlı kitabında qida tapmaq üçün suya girən bəzi ayıların sonda balinalara çevrildiyini iddia edirdi. (Charles Darwin, The Origin of Species: A Faxsimile of the First Edition, Harvard University Press, 1964, s. 184).

Lakin Mendel tərəfindən kəşf edilmiş və 20-ci əsrdə genetikanın inkişafı ilə təsdiqlənmiş irsiyyət qanunları, əldə edilmiş xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi mifini qəti şəkildə məhv etdi. Beləliklə, təbii seçmə tamamilə əsassız və təsirsiz bir mexanizm olaraq qaldı.

***(Ardı olacaq)***

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
26 iyul
2025-ci il

# Vaxtı ötmüş məhsulların "endirim" adı ilə satılması cinayətdir!



*"Son illər iri marketlərdə istifadə müddəti bitmək üzrə olan və ya artıq keçmiş qida məhsullarının, xüsusilə də tərəvəz və balıq kimi tez xarab olan məhsulların endirimli qiymətlərlə satışa çıxarılması hallarına tez-tez rast gəlinir. Bu cür hallar çox təhlükəli tendensiya kimi qiymətləndirir və bunun ciddi ictimai sağlamlıq problemi yarada bilir". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə ekspert Asim Vəliyev deyib.*



## Ekspert şərh etdi

Onun sözlərinə görə, ilk baxışdan bu kimi endirim kampaniyaları alıcılar üçün cəlbedici görünsə də, əslində bu praktika arxasında ciddi risklər dayanır. Təzə görünən, lakin istifadə müddəti bitmiş və ya düzgün şəraitdə saxlanmamış məhsulların istehlakı qida zəhərlənmələrinə, infeksion xəstəliklərə və uzunmüddətli sağlamlıq fəsadlarına yol aça bilər. Xüsusilə balıq və dəniz məhsulları yüksək riskli qida kateqoriyasına daxildir və onların istifadə müddəti keçdikdən sonra istehlaka yararlı hesab olunması qətiyyən düzgün deyil: "Balıq məhsulları düzgün temperaturda saxlanmadıqda və ya soyutma zənciri pozulduqda tərkibində histamin adlı toksik maddənin yaranması ehtimalı artır. Bu maddə insan orqanizmində allergik reaksiyalar, qusma, ishal, ürəkbulanma kimi simptomlara səbəb ola bilər. Eyni zamanda, bu məhsulların görünüşü və qoxusu bəzi hallarda dəyişmədiyi üçün alıcılar təhlükəni hiss etmədən onu ala və istehlak edə bilərlər. Bu isə son dərəcə təhlükəlidir.

Tərəvəz məhsulları nisbətən daha az riskli olsa da, onların da müəyyən şərtlər daxilində sağlamlığa zərər verməsi mümkündür. Xüsusilə qablaşdırılmış, kəsilmiş və ya bir neçə gün vitrinlərdə saxlanmış tərəvəzlər üzərində bakteriyalar və kif göbələkləri inkişaf edə bilər. Bu da bağırsaq infeksiyalarına, həzm sistemində pozğunluqlara və allergik reaksiyalara səbəb ola bilər. Belə məhsulların son istifadə tarixi keçibsə və ya saxlanma şəraiti düzgün deyilsə, onların satışa çıxarılması həm istehlakçı hüquqlarının pozulmasıdır, həm də sağlamlıq baxımından ciddi məsuliyyətsizlikdir.

Ekspert hesab edir ki, bu cür hallara qarşı nəzarət tədbirləri daha da sərtləşdirilməlidir. Satış məntəqələri yalnız iqtisadi maraqlarla deyil, ictimai məsuliyyət hissi ilə hərəkət etməlidirlər. Qida məhsulları ilə bağlı mövcud qanunvericiliyə görə, istifadə müddəti bitmiş məhsulların satışa çıxarılması qanun pozuntusudur və bu, inzibati məsuliyyətə səbəb olur. Amma təəssüf ki, bəzi hallarda bu qaydalara əməl olunmur və zərərçəkən tərəf son nəticədə alıcı olur. İstehlakçılar da bu məsələdə diqqətli olmalı, alış-veriş zamanı məhsulun üzərindəki "istehsal" və "son istifadə" tarixlərini diqqətlə yoxlamalıdırlar. O, eyni zamanda alıcılara tövsiyə edir ki, endirimli məhsulları alarkən təkcə qiymətə deyil, məhsulun vəziyyətinə, görünüşünə, qoxusuna və saxlanma şəraitinə də diqqət yetirsinlər. Əgər məhsulda hər hansı şübhəli əlamət müşahidə olunarsa, ondan imtina etmək və bunu market rəhbərliyinə bildirmək lazımdır.

Nəticə olaraq, qida təhlükəsizliyi cəmiyyətin sağlamlığını qoruyan əsas sütunlardan biridir və burada həm dövlətin, həm də biznes strukturlarının məsuliyyəti böyükdür. İstifadə müddəti keçmiş məhsulların satışdan çıxarılması, düzgün şəkildə zərərsizləşdirilməsi və istehlakçının maarifləndirilməsi bu prosesin vacib tərkib hissələridir. Marketlər yalnız gəlir əldə etməyi deyil, həm də cəmiyyət qarşısında olan məsuliyyətlərini nəzərə alaraq davranmalı, ictimai sağlamlığı təhlükəyə atmamalıdırlar".

**Ziya Hikmətoğlu**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Şəxsiyyət vəsiqəsində əks olunan məlumatların tərkibi yenilənəcək



Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatları əlavə ediləcək. SİA xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanuna dəyişiklikləri təsdiq edib. Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatları əlavə ediləcək. Eyni zamanda elektron daşıyıcıda (çipdə) əvvəlki variantla müqayisədə yalnız daha zəruri məlumatlar saxlanılacaq.

Bundan başqa, vətəndaşın ailə vəziyyəti, valideynləri, uşaqları, hərbi vəzifəsi və digər məlumatlar artıq birbaşa elektron daşıyıcıda deyil, IAMAS (idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi) vasitəsilə saxlanılacaq və kriptoqrafik mühafizə olunacaq. Şəxsiyyət vəsiqəsi ilə bağlı məlumatların kriptoqrafik mühafizəsi, onların məxfiliyinin, bütövlüyünün və icazəsiz müdaxilədən qorunmasının təmin olunması məqsədini daşıyır.

Eyni zamanda vəsiqənin verilməsi qaydalarına da dəyişikliklər edilib. Belə ki, vəsiqə dəyişdirilməli olan hallara yaşayış yerinin dəyişməsi əlavə olunur. Bundan başqa, əgər vəsiqə və ya elektron daşıyıcısında texniki və ya məzmunla bağlı səhv aşkar edilərsə, düzəlişin dövlət rüsumu tutulmadan həyata keçirilməsi nəzərdə tutulur.

# Bu gün 40 dərəcə isti olacaq

İyulun 26-da Azərbaycanda 40 dərəcə isti gözlənilir. SİA xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.

Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 23-27° isti, gündüz 33-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət gecə 70-75 %, gündüz 40-45 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 35-40° isti, dağlarda gecə 10-15° isti, gündüz 22-26° isti olacaq.




**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000